**BÖYÜK GÜCLƏRİN RƏQABƏTİNİN YENİ MƏRHƏLƏSİ BAŞLAYIB**

# SURİYADA HƏR ŞEY YENİDƏN QURULUR



Bəşər Əsədin devrilməsi ilə Suriya tarixinin yeni mərhələsinə daxil olub. 50 illik rejim çöküb və hazırda hər kəs xalqın iradəsini əks etdirən bir siyasi prosesin başlayacağını gözləyir. İndi əsas məsələ Suriyanın gələcək liderinin kim olacağı, hakimiyyətə kimlərin gələcəyidir.

Bu prosesdə "Heyət Təhrir əş-Şam"ın (HTŞ) lideri Əbu Məhəmməd əl-Colani ön plana çıxıb. O, Suriyanın gələcək siyasi arxitekturasını formalaşdırmaq iddiasında olan şəxs kimi tanınır. Artıq verdiyi açıqlamalarla həm Suriyanın daxili siyasətində, həm də beynəlxalq münasibətlərdə diqqət mərkəzindədir.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

21 DEKABR ŞƏNBƏ 2024 № 49 (4200) Qiyməti - 40 qəpik www.kaspi.az



## AZƏRBAYCANIN NÖVBƏTİ DİPLOMATİK UĞURU

Azərbaycan Misirdə keçirilən toplantıda D-8 təşkilatının üzvü seçilib. Təşkilata üzvlüklə bağlı qərar istər xarici siyasət, istərsə də iqtisadi əməkdaşlıq imkanlarının şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

SƏHİFƏ 2-də



## ƏDALƏTİN VƏ HAQQIN TƏNTƏNƏSİ

Hərbi cinayətkarların məhkəməsi ədalətin mütləq zəfər çalacağının dünyaya nümayişidir. O dünyaya ki, illər boyu bizə qarşı törədilən soyqırımı prosesinə üzdə göz yumub, arxada isə haqq qazandırmaqdan çəkinməyib.

SƏHİFƏ 7-də



## NƏ YOL XƏRİTƏMİZ VAR, NƏ DƏ STANDARTLARIMIZ

Qış turizm mövsümünə artıq start verilib. Mütəxəssislər hesab edirlər ki, ölkədə qış turizmi ilə bağlı yol xəritəsi hazırlanmalı, müvafiq sənədlər qəbul edilməlidir. Ölkəmizdəki milli parklar da bu işdə ön planda olmalıdır.

SƏHİFƏ 11-də

# DÜNYADA İKİNCİ BELƏ ÖLKƏ YOXDUR



"İstər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir".

**TƏHDİDLƏR KİFAYƏT QƏDƏR CİDDİDİR**

Prezident İlham Əliyev müsahibəsində bildirib ki, təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır.

**ERMƏNİSTANIN ATMALI OLDUĞU ADDIMLAR**

Prezident İlham Əliyev bildirib ki, bölgədə davamlı sülh üçün daha iki məqam var. Bunlardan ən başlıcası Ermənistanın konstitusiyasını dəyişməsidir. Dövlət başçısı bildirib ki, konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var.

SƏHİFƏ 3-də

**İKİ MÜHARİBƏNİ BİR ROMANDA BİRLƏŞDİRƏN YAZAR**

# "KEÇMİŞLƏ YAŞAYAN İNSAN DEYİLƏM"



"Məktəbdə" layihəsinin növbəti qonağı "Bu şəhərdə kimsə yoxdur" kitabı ilə məşhurlaşan yazıçı-publisist Rövşən Abdullaoğlu oldu. Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin birgə reallaşdırdığı görüşdə məktəb illərindən, müəllimlərinin həyatında oynadığı roldan, yeniyetmə və gənclərin daha çox maariflənməyə ehtiyacı olduğu sahələrdən söz açan qonaq şagirdlərə həyatda uğur qazanmalarından ötrü tövsiyələrini əsirgəmədi.

SƏHİFƏ 9-da



## HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞLA BAĞLI YENİ QAYDALAR

Bugünlərdə Milli Məclisdə birinci oxunuşda qəbul edilən dəyişikliklər cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Ekspertlərin qənaətincə, təklif olunan bütün addımlar cəmiyyətə xidmət edir və sosialyönümlüdür.

SƏHİFƏ 6-da



## 46 MİNƏ YAXIN TƏLƏBƏYƏ TƏHSİL KREDİTİ VERİLİB

Bu məqsədlə 41 milyon manata yaxın vəsait təhsil müəssisələrinin hesablarına köçürülüb. Hesabat dövrü ərzində təhsil göstəriciləri yüksək olan məzunlara bağışlanmış vəsaitin ümumi məbləği təqribən 444 min AZN təşkil edir.

SƏHİFƏ 12-də



## ÇOXDANDIR ANONS EDİLƏN REYESTR LƏNGİYİR

Xeyli müddətdir ki, tikilməkdə olan, çıxarışı olmayan binalardan müqavilə ilə alınan mənzillərin elektron reyestrinin yaradılacağı bildirilir. Lakin zaman keçsə də, reyestr hazır olmur ki, olmur.

SƏHİFƏ 10-da



Sələmi xatırladan kreditlərə son

SƏHİFƏ 8-də



Həm xeyirli, həm də ziyanlı

SƏHİFƏ 14-də



Nazirlər yetişdirən 128 yaşlı məktəb

SƏHİFƏ 15-də



Adı ət olsa da...

SƏHİFƏ 13-də



Süni intellekt təbii meydanlarda

SƏHİFƏ 16-da

GLOBAL MEDIA GROUP

# "Global Media Group"un şirkətləri auditdən uğurla keçiblər

"Global Media Group"un tərkibində fəaliyyət göstərən "Global Management" autsorsinq şirkəti, "Baku TV" xəbər kanalı, "Oxu.az" xəbər saytı və "Report" İnformasiya Agentliyində 16-18 dekabr 2024-cü il tarix aralığında beynəlxalq standartların tələbləri əsasında ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemləri, ISO 14001:2015 Ətraf Mühitin İdarə Edilməsi Sistemləri, ISO 45001:2018 Sağlamlıq və Əməyin Təhlükəsizliyinin İdarə Edilməsi Sistemləri 2-ci nəzarət auditi uğurla keçirilib. Audit "TÜV Austria Azərbaycan" şirkəti tərəfindən aparılıb. Auditin məqsədi həmin təşkilatlarda tətbiq olunmuş İnteqrə Olunmuş İdarəetmə Sisteminin və onun proseslərinin davamlı təkmilləşdirilməsi ilə bağlı sübutların əldə edilməsi və təsdiq edilməsi olub. Keçirilən audit zamanı İnteqrə Olunmuş İdarəetmə Sisteminin uyğunluğu, kifayətliliyi və effektivliyini təmin etmək məqsədilə rəhbərlik tərəfindən sistemə dair liderlik və öhdəliyinin nümayiş etdirilməsi, düzgün resurslarla təmin edilməsi və təşkilatın strateji istiqamətinə uyğun qərarların verilməsi sübut edildi.
Qeyd edək ki, "Global Media Group"un tərkibində olan şirkətlər - "Oxu.Az" xəbər saytı, "Report" İnformasiya Agentliyi, "Baku TV" kanalı və "Global Management" autsorsinq şirkəti 2022-ci ildən bəri yuxarıda qeyd olunan standartlar üzrə sertifikatlara malikdir.

**"GLOBAL MEDİA GROUP" HAQQINDA**

Azərbaycanın ən böyük media-holdinqlərindən biri olan "Global Media Group" 2017-ci ildən fəaliyyətə başlayıb. "Global Media Group"a Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər şirkətlər daxildir.



# AZƏRBAYCANIN NÖVBƏTİ DİPLOMATİK UĞURU

Azərbaycan D-8 təşkilatının üzvü seçilib. Təşkilata üzvlüklə bağlı qərar istər xarici siyasət, istərsə də iqtisadi əməkdaşlıq imkanlarının şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**FUAD ABASOĞLU**

Azərbaycan daha bir beynəlxalq təşkilatın tam hüquqlu üzvü seçilib. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı ölkəmiz yekdilliklə D-8 təşkilatının üzvü seçilib.

**DOSTLUĞUMUZUN VƏ ƏMƏKDAŞLIĞIMIZIN GÖSTƏRİCİSİ**

Bu, müstəqillik tariximizdə əldə olunan davamlı diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi dəyərləndirilir.
Prezident İlham Əliyev də Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib: "Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.
Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.
Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.
Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir".
Azərbaycanın D-8-ə üzvlüyü həm ölkəmiz, həm də təşkilata üzv digər dövlətlər üçün unikal imkanlar açmaqdadır. Təşkilatın mövcud potensialı Bakının beynəlxalq aləmdə mövqelərinin daha da güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır. D-8 tarixində ilk dəfə olaraq genişlənmə qərarı alınması, ilk olaraq bu qərarın Azərbaycana şamil olunması ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun və etimadın bariz nümunəsidir.
Sammit zamanı səsləndirilən fikirlər də bir daha təsdiqləyir ki, geosiyasi mövqeyi, geniş iqtisadi potensialı, strateji tranzit məntəqələri və inkişaf etmiş nəqliyyat infrastrukturu ilə regional mərkəzlərdən biri kimi seçilən Azərbaycanın üzvlüyü təşkilatı daha da möhkəmləndirəcək. Bununla bağlı ümumi fikirlər birmənalıdır və ən yüksək səviyyələrdə qeyd olunur.




## D-8-İN İQTİSADİ POTENSİALI

Qeyd edək ki, D-8 iqtisadi imkanlarına görə çox mühüm platforma sayılır. Təşkilat üç qitəni əhatə edir. Quruma üzv dövlətlərin ümumi daxili məhsulunun həcmi bütövlükdə dörd trilyon dollardan artıqdır. Ticarət dövriyyəsi 130 milyard həcmindədir. Üzvlərinin əhalisinin sayı ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edir. Təşkilata üzvlüklə bağlı qərar həm də Bakının istər xarici siyasət, istərsə də iqtisadi əməkdaşlıq imkanlarının şaxələndirilməsi baxımından əhəmiyyət daşıyır. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Təsadüfi deyil ki, Azərbaycanın dövlət başçısı ilk dəfə olaraq İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib.

## Rəsmi Bakının İslam dünyası ilə qarşılıqlı əlaqələri dərinləşir

D-8 həm də Bakının İslam dünyası ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi, daha da inkişaf etdirilməsində yeni mərhələ sayılır. İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri olan Azərbaycanın D-8-ə qoşulması ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlərdir. Ölkəmizin D-8 üzvlüyü bir daha sübut edib ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir.
Tarix boyu Şərq ilə Qərb arasında



körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.
Xatırladaq ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir.

## ERMƏNİSTAN BİZİMLƏ SİLAH YARIŞINDA TAB GƏTİRMƏYƏCƏK

# DÜNYADA İKİNCİ BELƏ ÖLKƏ YOXDUR



**Prezident İlham Əliyev:** “İstər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur”.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev Rusiyanın “RİA Novosti” Agentliyi üçün tanınmış jurnalist Dmitri Kiselyova son müsahibəsində Cənubi Qafqaz regionunda baş verən proseslərə, Ermənistanla sülh danışıqlarındakı son durumla bağlı ümumi mənzərəyə detallı şəkildə aydınlıq gətirib. Dövlət başçısının müsahibəsində vurğuladığı bir çox məqamlar bölgənin gələcəkdə yaşaya biləcəyi proseslərin yol xəritəsi kimi də qiymətləndirilə bilər. Bu gün Azərbaycan dövləti və cəmiyyəti üçün ölkəmizin təhlükəsizliyinin təmini, bu istiqamətdə İrəvanla aparılan danışıqların mahiyyəti, Ermənistanın sürətlə silahlanmasının yaratdığı təhdidlər daha həssas mövzular sayılır. Məhz bu amilləri nəzərə alan Azərbaycan Prezidenti son müsahibəsində bir daha İrəvana xəbərdarlıq edib.

### “ERMƏNİSTANIN SİLAHLANMASI PROSESİ SIÇRAYIŞLA GEDİR”

Dövlət başçısı bildirib ki, təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır: “Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir”.

Prezident bu təhdidə qarşı ölkəmizin qabaqlayıcı addımlarını da açıqlayıb. Onun sözlərinə görə, 2025-ci il üçün hərbi büdcəmiz rekord məbləğdə olacaq. Bu, təxminən beş milyard dollardır. Dövlət başçısı bildirib ki, baş verənlər Ermənistanı fəlakətə aparır. “Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək”, - deyə İlham Əliyev bildirib. Qeyd edib ki, onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar.

## RAZILAŞDIRILMAYAN İKİ MADDƏ

Sülh danışıqlarına gəldikdə isə, Bakının mövqeyi və şərtləri hər kəsə məlumdur. Bu məsələdə dəyişən hansısa ciddi məqam yoxdur. Detalları yenə də Prezident İlham Əliyev açıqlayır:

“Biz əslində sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam”.

Dövlət başçısı son zamanlar haqqında müxtəlif fikirlər səsləndirilən razılaşdırılmamış qalan iki maddəni də açıqlayıb. Prezidentin sözlərinə görə, onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır: “Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir”.

### SÖZDƏ MÜŞAHİDƏ MİSSİYASI

Razılaşdırılmayan digər maddə isə Ermənistanda Qərbin casus yuvasına çevrilmiş, məskən olaraq da özlərinə sərhədlərimizin qarşı tərəfini seçən Avropa İttifaqının sözdə müşahidə missiyasıdır. Azərbaycan Prezidenti də bildirir ki, sözdə Avropa müşahidəçiləri pərdəsi altında Ermənistanla sərhədimizdə NATO tərəfindən infrastruktur yaradılıb. “Bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz”, - Prezident bildirib.

### KONSTİTUSİYA DƏYİŞMƏLİ, MİNSK QRUPU BURAXILMALIDIR

Bölgədə davamlı sülh üçün Ermənistan tərəfindən həyata keçirilməli olan daha iki məqam var. Bunlardan ən başlıcası Ermənistanın konstitusiyasını dəyişməsidir. Dövlət başçısı bildirib ki, konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi obyektiv şərtdir. “Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir”, - İlham Əliyev deyib.

Prezidentin fikirlərindən də göründüyü kimi, iki ölkə arasında sülh danışıqları bu gün xarici müdaxilələr, xüsusilə də Qərbin pozucu fəaliyyətinin nəticəsi olaraq uzanır. Bu müdaxilə isə hazırda dünyada yaşanan beynəlxalq gərginlik zəncirində əsas halqalardan sayılır. Bununla belə, Bakı yerləşdiyi çox çətin geosiyasi məkana, ətrafında münaqişələrin mövcudluğuna baxmayaraq özünün müstəqil, suveren siyasətini uğurla davam etdirir. Prezidentin də vurğuladığı kimi, istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir: “Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur”.

# MÜDRİK, UZAQGÖRƏN VƏ QƏTİYYƏTLİ SİYASİ LİDER

İlham Əliyev bu gün qalib xalqın, qalib dövlətin rəhbəridir. Onun rəhbərliyi ilə Azərbaycan tək regionu deyil, dünyanı narahat edən qlobal problemlərin həllində də müstəsna rol oynayır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə beynəlxalq aləmdə baş verən kataklizmlər, müharibələr və münaqişələr dövlətlərin, xalqların taleyində liderlərin nə dərəcədə mühüm rol oynadığını bir daha isbatlamış oldu. Azərbaycan çox azsaylı dövlətlərdən biridir ki, belə gərgin bir zamanda müdrik, uzaqgörən və qətiyyətli siyasi liderə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin zəngin idarəçilik təcrübəsi, dəmir iradəsi, diplomatik zəkası müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır.

Dekabrın 24-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 63 yaşı tamam olur. Dövlət başçısı prezidentlik institutuna rəhbərlik etdiyi ilk andan ölkəsinin, xalqının milli mənafeyi, maraqları uğrunda yorulmadan, usanmadan fəaliyyət göstərir. Prezident kimi xalqın ona göstərdiyi böyük etimadı əməli fəaliyyəti və qərarları ilə daim doğruldur. Bu fəaliyyət özünü Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanın əldə etdiyi böyük uğurlarda, imza atdığı yeniliklərdə, sahib olduğu dəyərlərdə göstərir.

### MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN

İlham Əliyev bu gün qalib xalqın, qalib dövlətin rəhbəridir. Lakin bu zəfərin memarı, müəllifi elə Müzəffər Ali Baş Komandan kimi özüdür. Məhz Azərbaycan xalqının ona olan sarsılmaz inamı, sevgisi və etimadı 30 illik işğala son qoymaq üçün çıxdığımız yolda ən böyük ilham qaynağımız olub. Dövlət başçısının 2003-cü ildən etibarən işğal edilmiş ərazilərimizin azad olunması istiqamətində yorulmaz və gərgin fəaliyyəti Zəfərimizi şərtləndirən amillərin yetişməsinin başlıca şərtidir: güclü iqtisadiyyat, müasir, peşəkar, vətənpərvər Silahlı Qüvvələr, beynəlxalq aləmin dəstəyi, xalq-iqtidar birliyi, sabit ictimai-siyasi vəziyyət... İşğala son qoyaraq, ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa edərək, üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, Ağdamda, Xocalıda qürurla dalğalandırmaqla Prezident İlham Əliyev Azərbaycan xalqı, dövləti qarşısında verdiyi sözləri ən yüksək səviyyədə yerinə yetirdi. Bununla da qalib rəhbər kimi əbədi olaraq adını Azərbaycan xalqının yaddaşına, tarixinə yazdırdı.



### XATİRƏLƏRDƏ UNUDULMAZ İZLƏR BURAXAN SƏFƏRLƏR

Bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü, müstəqil siyasət yürüdən dövlətidir. Dünyada sözünə etimad göstərilən, təşəbbüsləri dəstəklənən ölkəmiz yaralarını öz imkanları hesabına sağaldır. İşğaldan azad edilmiş ərazilərdə böyük abadlıq, quruculuq, bərpa işləri həyata keçirilir. Keçmiş məcburi köçkünlər üçün layiqli həyat şəraitinin yaradılması istiqamətində addımlar atılır. Bu işlərin hər biri Prezident İlham Əliyevin şəxsi nəzarəti, rəhbərliyi ilə həyata keçirilir. Azərbaycan Prezidentinin işğaldan azad edilən rayonlara hər bir səfəri, sakinlərlə görüşləri onların xatirəsində unudulmaz izlər buraxır.

### DÖVLƏT BAŞÇISINA OLAN BEYNƏLXALQ İNAM

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tək regional deyil, dünyanı narahat edən qlobal problemlərin həllində də müstəsna rol oynayır. Pandemiya zamanı BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatı sayılan Qoşulmama Hərəkatına sədrliyin dövlətimizə həvalə edilməsi həm də Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinə olan beynəlxalq inamın təzahürü idi. Dövlət başçısının dünya üçün ən çətin zamanlarda təşkilatın sədri olaraq qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər, Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində çoxsaylı dövlətlərə yardım əlini uzatması bu inamın heç də təsadüfi olmadığını bir daha isbatladı.




### DÜNYANIN PROBLEMLƏRİNİN HƏLL EDİLDİYİ MƏKAN

2024-cü il Azərbaycan adı dünyaya bir daha səs saldı. Ölkəmiz yenidən yekdil qərarla bəşəriyyət üçün ən ciddi problem sayılan iqlim dəyişmələri ilə mübarizə məsələsində etimad göstərilən, üz tutulan ünvan oldu. Bakı qısa müddətdə miqyasına görə dünyanın ən böyük və uzunmüddətli tədbiri sayılan COP29-a peşəkar səviyyədə hazırlaşaraq uğurla ev sahibliyi etdi. 70 mindən çox xarici qonağın, prezidentlərin, dövlət rəsmilərinin qatıldığı bu tədbir Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycan adını dünyaya duyurdu. Dövlət başçısının təşəbbüsləri, gərgin əməyi və diplomatik səyləri nəticəsində COP29 mühüm qərarların qəbul edildiyi bir tədbir olaraq COP-lar tarixinə ən uğurlu konfrans kimi düşdü.

### QALİB AZƏRBAYCAN İLHAM ƏLİYEVİN ƏSƏRİDİR

Bu gün Azərbaycan qalib dövlət olmaqla yanaşı, həm də özünün unikallığı ilə seçilən, dünyanın müxtəlif güc mərkəzləri ilə bərabər hüquqlu, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq qurmağı bacaran, müstəqil siyasət yürüdən bir ölkədir. Heç bir güc, heç bir təzyiq bizi çıxdığımız bu yoldan döndərmək, iradəmizə təsir etmək qüdrətinə malik deyil. Çünki Azərbaycanın Prezident İlham Əliyevin timsalında dəmir siyasi iradəyə, açıq sözlülüyə, dərin zəkaya, uzaqgörənliyə malik qalib lideri, rəhbəri var. Əgər müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin əsəri idisə, qalib, ərazi bütövlüyü, suverenliyi tam bərpa edilmiş, iradəsi ilə hər kəsin hesablaşdığı müasir Azərbaycan Müzəffər Prezident İlham Əliyevin əsəridir.

# SURİYADA HƏR ŞEY YENİDƏN QURULUR

Suriyada böyük güclərin rəqabətinin yeni mərhələsi başlayıb. Türkiyə, o cümlədən bir çox qonşu dövlətlər vahid Suriyanı dəstəkləsələr də, "parçala, hökm sür" prinsipini əsas tutan güclər də var.



AZƏR NURİYEV

Başar Əsədin devrilməsi ilə Suriya tarixinin yeni mərhələsinə daxil olub. 50 illik rejim çöküb və hazırda hər kəs xalqın iradəsini əks etdirən bir siyasi prosesin başlayacağını gözləyir. İndi əsas məsələ Suriyanın gələcək liderinin kim olacağı, hakimiyyətə kimlərin gələcəyidir. Bu prosesdə "Heyət Təhrir əş-Şam"ın (HTŞ) lideri Əbu Məhəmməd əl-Colani ön plana çıxıb. O, Suriyanın gələcək siyasi arxitekturasını formalaşdırmaq iddiasında olan şəxs kimi tanınır. Artıq verdiyi açıqlamalarla həm Suriyanın daxili siyasətində, həm də beynəlxalq münasibətlərdə diqqət mərkəzindədir. Bir çoxları onun avtoritar yanaşmasından və rəqiblərinə qarşı amansız münasibətindən ehtiyat edirlər. Onun keçmişdə "Əl-Qaidə" ilə əlaqələri, həmçinin Türkiyə və Qətərlə sıx əməkdaşlığı da diqqətdən qaçmır.

Bütün bunlarla yanaşı, HTŞ qruplaşması hazırda Suriyadakı proseslərə böyük ölçüdə nəzarət edir. Müvəqqəti keçid hökuməti də yaradılıb və yeni seçkilər elan edilib. Maraqlıdır ki, müvəqqəti hökumətdə təmsil olunmayan Colani seçkilərdə iştirak edəcəyini bəyan edib. Yəni o, prezident olmaq istəyir.

Bir çoxları hesab edir ki, Suriya ikinci Əfqanıstana çevrilə bilər. Colani isə bildirib ki, Suriya Əfqanıstana bənzəməyəcək. O, hesab edir ki, bu iki ölkə "çox fərqlidir".

### HTŞ QARA SİYAHIDAN ÇIXMAQ İSTƏYİR

Bir müddət əvvəl Colani ilə görüşən BMT-nin xüsusi nümayəndəsi Geir Pedersenin HTŞ liderinin dünya tərəfindən qəbul olunub-olunmayacağı ilə bağlı fikirləri də diqqət çəkir. Onun sözlərinə görə, Suriyanın yeni rəhbərliyinin ölkədaki bütün müxtəlif dini və etnik qrupların hüquqlarına hörmətlə yanaşması həyati əhəmiyyət kəsb edir. BBC-yə danışan Pedersenin sözlərinə görə, Colani onunla görüşdə "çox müsbət şeylər söyləyib". Bununla belə, o, HTŞ-nin terror təşkilatları siyahısından çıxarılmasına dair qərarın Colaninin davranışlarından asılı olduğunu vurğulayıb. "Biz HTŞ-nin siyahıdan çıxarılması və sanksiyaların sona çatdığını görə bilərik", - Pedersen deyib.



## TÜRKİYƏNİN ƏVƏZSİZ ROLU

Hazırda Suriyada müvəqqəti hökumət idarəçiliyi mövcuddur və xarici güclərin, xüsusən də Türkiyənin aktiv iştirakı ilə normal dövlətin qurulması prosesi başlayıb. Lakin bu prosesdə İsrail amili də ön plana çıxıb. Bu isə bölgənin əsas gücü olan Türkiyə ilə İsrailin Suriyada üz-üzə gəlməsi ehtimalını artırır. Ankara Suriyanın parçalanmasını istəmir. Bu, tək Türkiyə üçün yox, bütün qonşu dövlətlər üçün də təhlükə mənbəyidir. Ankaranın, ən başlıcası isə Prezident Rəcəb Tayyib Ərdoğanın yeni Suriyanın qurulması prosesində əsas söz sahibi olması Qərb tərəfindən də reallıq olaraq qəbul edilir. Məsələn, ABŞ-nin yeni seçilən prezidenti Donald Tramp bildirib ki, Ərdoğan çox ağıllı adamdır. O, Türkiyənin çox güclü orduya malik olduğunu da deyib. Ekspertlər bildirirlər ki, Tramp Ərdoğanla birlikdə Suriya məsələsinin həllinə çalışacaq. Lakin mövcud administrasiyanın Suriya ilə bağlı baxışları Türkiyənin maraqlarına uyğun gəlmir.

### İŞİD SƏHNƏYƏ QAYTARILA BİLƏR?

Hazırda Suriyada İŞİD təhlükəsinin yenidən aktuallaşacağı ilə bağlı narahatlıqlar da artırıb. İllərdir darmadağın edilmiş sayılan İŞİD-in qalıqları Suriya-İraq sərhədindəki geniş səhralıq ərazilərdə varlığını qoruyur. Ekspertlər xəbərdar edirlər ki, bu qisasçı qruplaşma Bəşər Əsəd rejiminin çöküşündən sonra yaranan hakimiyyət boşluğunu doldurmağa çalışa bilər. Bu məqam isə daha çox Vaşinqton və onun dəstəklədiyi PKK-PYD terror qrupları tərəfindən ortaya atılıb. PYD onlara hücum olacağı təqdirdə "həbsdə saxladığı 50 min İŞİD üzvünün sərbəst qala biləcəyi" ilə təhdid edir.

Belə bir vəziyyətdə Ankaranın atacağı addımlar maraq doğurur. Türkiyənin xarici işlər naziri Hakan Fidan "Əl-Cəzirə"yə müsahibəsində bildirib ki, bu gün Suriyada yaşananlar xalqın iradəsinin iqtidarı ələ almasıdır. Oradakı PKK-YPG varlığı isə Türkiyə üçün önəmli təhdiddir.



Rəcəb Tayyib Ərdoğan

## VAŞİNQTON ANKARANI HƏDƏLƏYİR



Geir Pedersen

Hakan Fidan

Bu arada ABŞ-də Demokrat Partiyasından senator Kris Van Hollenin və respublikaçı senator Lindsi Qrehemin YPG-yə dəstək bəyanatı verməsi diqqət çəkib. "X" platformasında Qrehemlə birgə açıqlamalarını paylaşan Van Hollen, "Türkiyənin dəstəklədiyi qüvvələrin suriyalı kürd tərəfdaşlarımıza hücumları regional təhlükəsizliyə və İŞİD-in yenidən ortaya çıxmasının qarşısını almaq səylərinə zərbə vurur" deyib. Onlar iddia ediblər ki, Türkiyə atəşkəsi və silahsızlaşdırılmış zonanı qəbul etməlidir: "Əks halda, 2019-cu ildə olduğu kimi, Türkiyəyə qarşı sanksiya tətbiq edilməsini təklif edəcəyik". Senatorlar Mazlum Abdi ilə telefonla danışdıqlarını qeyd edərək, YPG-yə dəstəklərini bir daha bəyan ediblər.

Beləliklə, Suriyada böyük güclərin rəqabətinin yeni mərhələsi başlayıb. Türkiyə, o cümlədən bir çox qonşu dövlətlər vahid Suriyanı dəstəkləsələr də, "parçala, hökm sür" prinsipini əsas tutan Qərb və ABŞ müxtəlif terror qrupları vasitəsi ilə gərginliyin davam etməsini istəyirlər. Proseslərin hansı istiqamətdə irəliləyəcəyini proqnozlaşdırmaq isə indiki durumda çox çətindir.

# HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞLA BAĞLI YENİ QAYDALAR

Milli Məclisdə birinci oxunuşda qəbul edilən dəyişiklər cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Ekspertlərin qənaətincə, təklif edilən bütün addımlar cəmiyyətə xidmət edir və sosialyönümlüdür.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda müddətli həqiqi hərbi xidmətə çağırış yaşının yuxarı həddi 35-dən 30-a endirilir. Bu, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Qeyd edək ki, hazırda çağırışçılar ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 35 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarıdır. Dəyişikliyə əsasən, çağırışçılar ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 30 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları olacaq. Milli Məclisdə birinci oxunuşda qəbul edilən qanun layihəsi cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Həmçinin hərbi xidmət müddətinin 1,5 ildən 1-ə endirilməsi də müzakirə edilir. Bəs bu dəyişiklikləri zəruri edən səbəblər nədir?

### "ORDUNUN KOMPLEKTLƏŞDİRİLMƏSİNDƏ PROBLEM YOXDUR"

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, yaş həddi müharibə şəraitində ordunun komplektləşdirilməsi istiqamətində atılan addımlarla əlaqədar 35-ə qaldırılmışdı: "Əvvəllər də bizdə müddətli həqiqi hərbi xidmətə çağırış yaşının yuxarı həddi 30 yaş idi. Lakin müharibə şəraitində ordunun komplektləşdirilməsi istiqamətində atılan addımlarla əlaqədar olaraq bu yaş həddi 35-ə qaldırıldı. Amma bu gün ordunun komplektləşdirilməsində problem yoxdur".

### CƏMİYYƏTƏ XİDMƏT EDƏN ADDIM

Hərbi ekspert Şair Ramaldanov deyir ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində qələbə qazandıqdan sonra bütün sahələr üzrə təhlillər aparılır, təkmilləşdirmələr, islahatlar gedir. Əlbəttə, ordu bu dəyişikliklərin mərkəzində dayanıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də Müdafiə Nazirliyi ilə birgə bu sahədə təhlilləri apararaq öz təkliflərini formalaşdırıb: "Təklif edilən bütün addımları cəmiyyətə xidmət edən, sosialyönümlü addımlar kimi qiymətləndirmək olar. Hərbi xidmətə çağırış yaşının yuxarı həddinin 35-dən 30-a endirilməsi düzgün addımdır. Bu, daha çox sağlamlıq vəziyyəti ilə bağlı hərbi komissiya tərəfindən yararsız sayılan gənclərə şamil olunur. Hərbi xidmətə yararsız olan gənclər üç ildən bir komissiyadan keçir, təsdiq gözləyirlər. Təbii ki, ağır əlillik dərəcəsi olmayanlar bilmirlər ki, komissiya onların hərbi xidmətə yararlı olmamasını növbəti yoxlanış zamanı təsdiqləyəcək, yoxsa yox. Ona görə də bu, gənclər üçün gələcək həyatlarını planlaşdırması, işləməsi baxımından çətin olur. Hətta bu, onların ailə qurmasına da mənfi təsir göstərir. Belə olduğu halda, əlbəttə, yuxarı yaş həddinin 35-dən 30-a endirilməsinin məntiqi var".








### DÖRD DƏFƏ KOMİSSİYADAN KEÇİR

Hərbi ekspert bildirir ki, 18 yaşda yararsız qərarı alan gənc 30 yaşa qədər dörd dəfə hərbi komissiya tərəfindən yoxlanılır: "Əgər 30 yaşına qədər dörd dəfə komissiyadan keçən gənc sağlamlığında qüsur olduğuna görə yararsız sayılırsa, bunu yenidən təsdiqə göndərməyin əhəmiyyəti yoxdur. Təcrübə göstərir ki, çox istisna hallarda 30 yaşa qədər dörd dəfə hərbi xidmətə yararsız qəbul edilən gənc 30-dan sonra yararlı kimi hərbi xidmətə göndərilir".


Arzu Nağıyev

## "Azərbaycan Ordusu peşəkarlıq prinsipi ilə inkişaf edir"

Hərbi ekspert vurğulayır ki, Azərbaycan Silahlı Qüvvələri güclüdür və bu qərarların orduya heç bir mənfi təsiri yoxdur: "Azərbaycan Ordusu peşəkarlıq prinsipi ilə inkişaf edir. Bu gün Silahlı Qüvvələrin şəxsi heyətinin 70 faizindən çoxu müddətdən artıq hərbi xidmət keçən peşəkar hərbçilərdir. Müddətli xidmət edən əsgərlərin isə demək olar ki, 90 faizə qədəri atıcı vəzifəsində xidmət edir. Atıcılıq biliklərinin alınması üçün çox zaman tələb olunmur. Ona görə də bu addımın Silahlı Qüvvələrin qüdrətinə təsiri yoxdur. Hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində rəhbər tutulan tələblər sovet dövründən qalıb. İndi biz qələbə qazanan, inkişaf etmiş, peşəkar güclü ordusu olan, ərazi bütövlüyünü tam bərpa edən Azərbaycanda yaşayırıq".

### "BU, MÜZAKİRƏ MÖVZUSU DEYİL"

Hərbi xidmət müddətinin azaldılması da hazırda cəmiyyətdə əsas müzakirə mövzularındandır. Kimisi hərbi xidmət müddətinin 18 aydan bir ilə endirilməsini təklif edir, kimisi də ali təhsillilərin altı ay əsgərlik müddətini çəkəcəyini deyir. Hərbi ekspert bildirir ki, bu müzakirələrin məntiqi əsası yoxdur.

Məlumat üçün bildirək ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müzakirələrə cavab olaraq məlumat yayıb. Məlumatda bildirilir ki, hərbi xidmət müddətinin azaldılması müzakirə mövzusu deyil: "Lakin əfsuslar olsun ki, bəzi xəbər saytlarında, sosial şəbəkə səhifələrində tirajlanan xəbərlər, həmçinin ekspertlər tərəfindən bildirilən fikirlər ictimaiyyət arasında çaşqınlıq yaradıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti qanunun müvafiq müddəalarının təkmilləşdirilməsinə dair təkliflər verib və layihə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinə təqdim edilib. Sadəcə, bir qədər səbirli olub, nəticəni gözləmək lazımdır. Dəyişikliklər bir sıra yenilikləri nəzərdə tutur. Lakin həqiqi hərbi xidmət müddətinin azaldılması məsələsi müzakirə mövzusu deyil. Yəni, ali təhsilli çağırışçılar əvvəllər olduğu kimi 12 ay, digər hallarda isə 18 ay müddətində həqiqi hərbi xidmətə gedəcəklər".


Şair Ramaldanov

# ƏDALƏTİN VƏ HAQQIN TƏNTƏNƏSİ

Hərbi cinayətkarların məhkəməsi tək xalqımız üçün tarixi proses deyil, həm də ədalətin mütləq zəfər çalacağının dünyaya nümayişidir. O dünyaya ki, illər boyu bizə qarşı törədilən bu amansız soyqırımı prosesinə üzdə göz yumub, arxada isə haqq qazandırmaqdan çəkinməyib.



RÜSTƏM QARAXANLI



Başa çatan həftə Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmış, bölücülük və mülki əhalinin amansız qətli ilə müşayiət olunmuş terror əməllərində suçlanan hərbi xuntanın üzvlərinin cinayət işi məhkəməyə göndərilidi. Toplanmış mötəbər sübutlar əsasında 15 nəfər Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən ümumilikdə 2 548 epizod üzrə cinayətdə ittiham olunur. Baş Prokurorluğun İstintaq idarəsində xalqımıza qarşı törədilən təcavüz aktı, işğal, soyqırımı, sülh və müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi, eləcə də digər çox sayda qanunazidd əməlin törədilməsi faktları ilə bağlı cinayət işinin istintaqı aparılıb. Beləliklə, əlləri xalqımızın qanına batmış canilərin ədalət mühakiməsi qarşısına çıxıb cavab verməsinin vaxtı yetişib...

**ƏDALƏTDƏN YAXA QURTARMAQ MÜMKÜN DEYİL**

Münaqişənin ilk günündən xalqımıza qarşı cinayət əməllərinə rəhbərlik etmiş bu şəxslər üzərində ədalət məhkəməsinin qurulması Azərbaycanın qazandığı daha bir zəfər - mənəvi qələbədir. Çünki onillər boyu şəhid və itkin düşmüş vətəndaşlarımızın ailələri bu anın gözləntisi ilə yaşayıblar. Qarşıdakı məhkəmə tək xalqımız üçün tarixi proses deyil, həm də ədalətin mütləq zəfər çalacağının dünyaya nümayişidir.

"Sivil" dünya terrorla "mübarizə" adı altında dünyanın dörd bir yanında terrorçu "axtarış"ına çıxıb, ancaq bir xalqa qarşı biləərəkdən sürdürülən cinayət əməllərini, minlərlə mülki insanın qətlini, dörd minədək vətəndaşımız barədə bu günün özündə də məlumatın yoxluğunu görməzdən gəlib. Başı insan haqlarını bayraq edib müstəqil yaşamaq istəyən ölkələrə və xalqlara qarşı qərəz və ikrah doğuran ayırıcı siyasətə qarışmış Qərb dünyasının yüzminlərlə azərbaycanlının illər boyu çadır şəhərciklərində dözülməz şəraitdə, əzab-əziyyətlə yaşamasını fundamental hüquqların pozulması hesab etməyə cəsarəti çatmayıb. Bu gün bu cinayətlərin önündə olmuş həmin şəxslərin çoxsaylı maddələr üzrə ittihamı və tezliklə məhkəmə qarşısına çıxmaları işğal nəticəsində doğma yurdundan didərgin düşmüş, yayın qızmar istisində, qışın dözülməz soyuğunda həmin çadır şəhərciklərində ömür sürmüş, burada vəfat etmiş, yaxud dünyaya gəlmiş hər bir azərbaycanlının mənəvi qələbəsidir.

## Cinayətlərini özləri etiraf ediblər

Əslində bu şəxslərin xalqımıza qarşı törətdikləri cinayət və terror əməlləri istintaqsız və məhkəməsiz də şübhə mövzusu ola bilməz. Vətəndaşlarımızın qətli və vətənindən zorla qovulması ilə müşayiət olunmuş bu qanlı siyasət bütün dünyanın gözləri qarşısında baş verib. Bu vandallıq barədə onlarla məqalə, hesabatlar yayımlanıb, foto və videodəlillər mövcuddur. Cinayət əməllərini törədənlərə rəhbərlik etmiş hərbi cinayətkarların özləri də bütün bunları etiraf ediblər. Ermənistanın ikinci prezidenti, Azərbaycan ərazisində bölücülüklə məşğul olmuş, terror və cani qruplaşmalarına rəhbərlik etmiş Robert Köçəryanın "insan haqları axtarışı"nda olan Avropa Şurasının Parlament Assambleyasındakı çıxışında törədilənlərə görə fəxarət hissi yaşadığını bəyan etməsini Qərbdəkilər unuda bilər, ancaq biz yaxşı xatırlayırıq.

Xalqımızın qanına susamış Ermənistanın daha bir sabiq prezidenti, azərbaycanlıların soyqırımının fəal iştirakçısı olmuş, separatçılıq yolunda Köçəryanla bərabər addımlamış Serj Sarqsyan verdiyi müsahibələrindən birində Xocalıda soyqırımı törətməkdə əsas məqsədlərinin bizim gözümüzü qorxutmaq, əzmimizi qırmaq olduğunu etiraf etməkdən çəkinmir. Bu müsahibə britaniyalı araşdırmaçı Tomas de Vaalın "Qarabağ - qara bağ" kitabında dərc edilib. Azərbaycanın çörəyini yemiş və hansısa səbəbdən azərbaycanlılara qarşı cinayətkar kompleksləri olan bu şəxs cəzalandırılmayacağına o qədər əmin olub ki, nəinki belə bir müsahibə verib, hətta sonra səhvini belə qəbul etməyib, dediklərinin kitabdan çıxarılmasını istəməyib. Dünyaca məşhur terrorçu, çoxsaylı cinayət əməllərinə rəğmən həbsdən çıxıb Qarabağa gəlmiş, xalqımıza qarşı vəhşilik və zorakı deportasiyanın simvollarından birinə çevrilmiş, Kəlbəcərin işğalına rəhbərlik etmiş beynəlxalq cani Monte Melkonyanın qardaşının xatirə kitabında çoxsaylı belə faktlara rast gəlmək olar.

Mühakimə olunacaq Araik Arutyunyan Azərbaycan ərazisində yaradılmış qanunsuz hərbi xuntanın başına keçməmişdən əvvəl xalqımıza qarşı işğal müharibəsinin iştirakçılarından biri olub. 44 günlük müharibə günlərində Gəncə, Bərdə və digər şəhərlərimizin uzaqmənzilli raketlərlə bombalanmasına və nəticə etibarilə mülki əhalinin tələfatına əmri şəxsən özünün verdiyini rəsmən bəyan edib. Əgər cinayətlərini özləri etiraf ediblərsə, nədən narazıdırlar? Erməni diasporunu, pula satılmış senatorları, konqresmenləri, parlamentariləri, "insan hüquqları təşkilatları"nı, rüşvətə bulaşmış keçmiş vəkilləri ayağa qaldırmaqla nəyə nail olmaq istəyirlər?



Serj Sarqsyan   Robert Köçəryan

## CİNAYƏTKARLARIN SAYI 15 NƏFƏRLƏ BİTMİR

Əlbəttə, Azərbaycan xalqına və dövlətinə qarşı terror, aqressiv müharibə, soyqırımı, əhalinin qətli, işgəncə vermə, hərbi talan, terrorçuluğun maliyyələşdirilməsi və sair maddələrlə ittiham olunan şəxslərin siyahısı ədalət mühakiməsinə çıxarılacaq bu 15 nəfərlə bitmir. Bu gün Ermənistanda daldalanan onlarla qanlı səhra komandirləri var ki, Bakıda məhkəməni gözləyənlərdən az cinayət əməli törətməyiblər. Eyni aqibəti bu və ya digər formada Köçəryanla Sarqsyan da yaşayacaq. Necə ki, illərlə gözlədiyimiz bu istintaq və keçiriləcək məhkəmənin ümidi ilə yaşamışıq, adıçəkilən şəxslərin də eyni şərəfsiz sonuca məhkum olacaqları günün uzaqda olmadığına inanmalıyıq. Erməni xalqı və hökuməti də bütün bunlardan nəticə çıxarmalı və bu şəxslərin əməllərinə qiymət verməlidir.

MALİYYƏ-KREDİT SİSTEMİNDƏ NİZAM-İNTİZAM GÜCLƏNDİRİLİR

# SƏLƏMİ XATIRLADAN KREDİTLƏRƏ SON



Hazırda ölkəmizdə 50-dən çox BOKT mövcuddur. Mərkəzi Bankın son qərarının bu sahədə mövcud çatışmazlıqlar və şikayətləri aradan qaldıracağı bildirilir.

SEVİNC ABBASOVA

Bank olmayan kredit təşkilatları (BOKT) ilə bağlı yeni qaydalar qüvvəyə minib. BOKT-ların nizamnamə kapitalı tələbi üç dəfədən çox artırılıb. Gündəlik kreditlərə dair tələblər də dəyişib. Dəyişikliyə görə, kreditlərin milli valyutada maksimum məbləği 500 manat, qaytarılma müddəti maksimum 45 gün olmaqla nəzərdə tutulub. Kreditlər üzrə gündəlik faiz dərəcəsi isə maksimum 0,3 faiz müəyyənləşdirilib. Başqa sözlə, BOKT-lar əvvəllər kreditlərə gündəlik yüksək faiz hesablaya bilirdilərsə, indi bu məbləğ 0,3 faizlə limitləndirilib.

Rəsmi statistikaya görə, hazırda ölkəmizdə 50-dən çox BOKT mövcuddur. Cəmi kapital portfeli 460 milyon manatdan çoxdur və kredit qoyuluşu 688 milyon manata bərabərdir.

Bəs görəsən, BOKT-larla bağlı dəyişikliklər nəyə hesablanıb? Bu addım bazarın strukturunda nələri dəyişəcək və qeyri-bank təşkilatlarının fəaliyyətinə necə təsir göstərəcək?

**“KONKRET HƏDƏFLƏR VAR”**

Sabiq millət vəkili Rüfət Quliyevin sözlərinə görə, yeni qaydalar maliyyə-kredit sistemində nizam-intizamı daha da gücləndirəcək: “Eyni zamanda, yeni qaydalar müəyyən qanuni yol xəritəsidir. Çünki insanlarda bəzən banklara və qeyri-bank təşkilatlarına qarşı nifrət yaranır ki, yüksək faizlə kredit verirlər. Amma bu, bazar iqtisadiyyatının bir alətidir. Onsuz inkişaf mümkün deyil. Limit məsələsinin tətbiq olunması onunla bağlıdır ki, sosial məsələlərdə problemlər yaranmasın. Tənzimləyici qurum çalışır ki, bu sahədə özbaşınalıqlar yığışdırılsın. Artıq həm BOKT-lar, həm də şikayətçi tərəflər bilməlidir ki, bu istiqamətdə konkret hədəflər var. Hər iki tərəfi dövlət nizamlayır”.

**PROBLEMLİ KREDİTLƏR AZALA BİLƏR**

İqtisadçı-ekspert Fuad İbrahimov isə deyir ki, maliyyə bazarlarına mütləq nəzarət olunmalıdır: “Bu gün ölkəmizdə kifayət qədər BOKT fəaliyyət göstərir. Onların fəaliyyəti bankların fəaliyyətindən seçilir. Bu təşkilatların daha rahat, eyni zamanda da daha yüksək faiz dərəcələri ilə kredit vermək imkanları var. Bu qəbildən olan fəaliyyət növlərinə mütləq nəzarət olunmalıdır. Çünki iqtisadiyyat genişləndikcə kreditlərə tələbat artır. Bu sektorun tənzimlənməsi ancaq işin sağlamlaşdırılmasına gətirib çıxaracaq”.

Həmsöhbətimiz qeyd edir ki, yeni tələblər istehlakçı hüquqlarının qorunmasına da xidmət edir: “Bu dəyişikliklər Mərkəzi Bankın “2024-2026-cı illərdə maliyyə sektorunun inkişafı Strategiyası”nda müəyyən edilmiş strateji hədəflər çərçivəsində qəbul olunub. Qaydalarda keyfiyyət xarakterli tələblər müəyyən edilib. Qaydalarda ilk dəfə qısamüddətli “gündəlik” kreditlər üzrə anlayış, məbləğ, müddət və gündəlik faiz dərəcəsi üzrə maksimal hədlər, habelə bu cür kreditlər üzrə daha sərt prudensial normativlər müəyyən edilib. Bu, çox önəmli məsələdir. Vətəndaşların mənafelərinin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir. Kreditlərə gündəlik faiz dərəcələri ilə bağlı limit tətbiq olunması həm də problemli kreditlərin qarşısının alınması istiqamətində müsbət nəticələr verə bilər”.

## BOKT-ların bazar payı artacaq

İqtisadçı-ekspert Rəşad Həsənov BOKT-larla bağlı qaydaların yeni dövrün tələblərinə uyğunlaşdırıldığı qənaətindədir. Onun fikrincə, bu qaydalar daha sağlam qeyri-bank təşkilatlarının formalaşmasına gətirib çıxaracaq: “Həm maliyyə, həm də risklərlə bağlı şərtlər əhəmiyyətli şəkildə dəyişib. Eyni zamanda, bu istiqamətdə dövlət siyasətinin çərçivələrində dəyişikliklər var. Əslində, qaydaların yenilənməsi xüsusilə də istehlakçı hüquqlarını qoruyan, bu istiqamətdə daha rəqabətli maliyyə institutlarının formalaşması üçün müəyyən çərçivələr yaradıb. Məsələn, nizamnamə kapitalının artırılması daha sağlam maliyyə dayanıqlığını təmin edəcək. Burada əsas məsələ şəffaflığın, hesabatlılığın müəyyən olunmasıdır. Son dövrlərdə tənzimləyici qurumun məqsədi ondan ibarətdir ki, maliyyə bazarlarının bütün seqmentlərində adekvat siyasəti həyata keçirə bilsin və şəffaflığa nəzarəti təmin etsin”.

İqtisadçının proqnozlarına görə, yaxın gələcəkdə BOKT-ları bazarın bir çox seqmentlərində müşahidə edə biləcəyik: “Təxminən 5-10 il ərzində bu qurumlar istehlak bazarı ilə yanaşı, həm biznes kreditləri, həm də güzəştli şərtlərlə kreditlərin təşkil edilməsi mexanizmləri bazarında payını artıracaqlar. Orta və uzunmüddətli gözləntim ondan ibarətdir ki, əgər yeni tənzimləmələr üzərindən növbəti dövrdə effektiv siyasət və həllər təklif olunarsa, bu, daha dayanıqlı, daha geniş bazar payına malik BOKT-ların formalaşmasına səbəb ola bilər”.

**0,3%**

**BOKT-LARDAKI KREDİTLƏR ÜZRƏ GÜNDƏLİK FAİZ DƏRƏCƏSİ**

## “Maliyyə bazarları şaxələnməyib”

Ekspert həmçinin deyir ki, kredit bazarında faizlər tələb və təklif əsasında rəqabətli mühitdə formalaşmalıdır: “Amma bazarda bir də gerçəklər mövcuddur. Gerçəklər ondan ibarətdir ki, Azərbaycanda maliyyə bazarları şaxələnməyib, bu istiqamətdə əlçatanlıq aşağıdır. Bunu həm Dünya Bankının sorğuları, həm də Azərbaycan Statistika Komitəsinin məlumatları təsdiqləyir. Statistika Komitəsinin sorğularına görə, sahibkarlıq subyektlərinin birinci ən ciddi problemi maliyyə əlçatanlığıdır. Belə bir şəraitdə şəffaf olmayan BOKT seqmenti mövcuddur və verdiyi kreditlərdə yüksək faizlərin tətbiqi imkanı genişdir. Çünki BOKT-lara münasibətdə tənzimləyici qurum xüsusi tənzimləmələr tətbiq etmirdi. Digər sahədə krediti qaytarma qabiliyyəti olmayan müştərilər BOKT sahəsinə meyllənə bilirdilər. Necə ki bu kateqoriyada olanlar lombardlara meyllənirdilər, eyni qaydada da BOKT-lara üz tuturdular. Burada da mövcud vəziyyətdən sui-istifadə halları yaranırdı. Faizlərlə bağlı müvafiq həddin gətirilməsi bu istiqamətdə mövcud olan riskləri idarə etmək məqsədi daşıyır”.



Rüfət Quliyev



Fuad İbrahimov



Rəşad Həsənov

"HƏYATDA ƏN UĞURSUZ İNSAN PSİXOLOJİ PROBLEMLƏRİ İLƏ BACARA BİLMƏYƏNLƏRDİR"

# "KEÇMİŞLƏ YAŞAYAN İNSAN DEYİLƏM"






Fotolar: Rüfət Mikayılov - Global Photostock

**Yazıçı-publisist Rövşən Abdullaoğlu:**
"Keçmişə yalnız səhvlərimdən nəticə çıxarmaq üçün baxıram. Nə qədər keçmişdən asılı qalırıqsa, həyatımız bir o qədər uğursuz olur. Mən irəli baxmağı xoşlayıram".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Məktəbdə" layihəsinin növbəti qonağı "Bu şəhərdə kimsə yoxdur" kitabı ilə məşhurlaşan yazıçı-publisist Rövşən Abdullaoğlu oldu. Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin birgə reallaşdırdığı görüşdə məktəb illərindən, müəllimlərinin həyatında oynadığı roldan, yeniyetmə və gənclərin daha çox maariflənməyə ehtiyacı olduğu sahələrdən söz açan qonaq şagirdlərə həyatda uğur qazanmalarından ötrü tövsiyələrini əsirgəmədi.

### "BÜTÜN DÜNYANI HƏDƏFLƏDİYİMƏ GÖRƏ..."

"Mən yazıçı-publisist, eyni zamanda psixoloq-təlimçiyəm. Ölkəmizdə, regionda, həmçinin Avropada, Amerikada təlimlərim olub", - deyə Rövşən Abdullaoğlu özü haqqında məlumat verdi: "Fəaliyyətimə yazıçı kimi başlamışam. Müxtəlif janrlarda - publisistik, bədii əsərlər yazıram. İlk bədii əsərim 2016-cı ildə çap olunan "Bu şəhərdə kimsə yoxdur" kitabıdır. 30-a yaxın kitabım çap olunub. Əsərlərim müxtəlif dillərə tərcümə olunub və xarici ölkələrdə təqdimatı keçirilib. Əsərlərim əsasında filmlər çəkilib. Eyni zamanda, bəzi kitablarımı ekranlaşdırmaq təklifləri var. Çalışıram ki, filmlərin ssenaristi də özüm olum. Onlarla danışanda ilk şərtim bu olur ki, mənim yazdığımı özüm kimi heç kim hiss edə bilməz. Bütün bunlar Azərbaycanın və ədəbiyyatının tanıdılması üçündür. Bu, bizdən sonra gələnlər üçün bir çığır olsun". Qonaq ədəbiyyata gəldiyi ilk vaxtlardan söhbət açdı: "2010-cu ildə kitab sahəsinə gələndə ədəbiyyat aləmində özügüvənsizlik vardı. Mənə deyirdilər ki, "Azərbaycan xalqı yerli yazıçının əsərini oxumayacaq, uğursuz olacaqsan". Onda hələ xarici ədəbiyyata böyük bir maraq vardı. Mən bu sahədə bir özgüvən yaratmaq haqqında fikirləşdim. "Bu sahədə uğursuz olsam, digər sahələrdə də uğursuz olacağam", - deyə düşündüm. Çünki yaxşı müəllimin, peşəkar işçinin işi kitabdan keçir. Yaxşı oxucu peşəkar olur. Bədii ədəbiyyat, xüsusən psixoloji kitablar adama təsəvvür edə bilmədiyiniz uğurlar gətirə bilər. İlk kitabımı yazanda heç vaxt düşünməmdim ki, bunu məhəllə uşağı və ya anam üçün yazıram. Düşündüm, elə bir kitab yazıram ki, bunu bütün dünya oxuyacaq. Bütün dünyanı hədəflədiyimə görə xaricə çıxa bildim. Mən səyahət etməyi də xoşlayıram. Fərqli yerlərə səyahəti sevirəm. Afrikada, Antarktidada, Latın Amerikasında olmuşam. Bu səyahətlər kitablarıma təsir edir".

### "İNSANIN ÖZÜNƏ GÜVƏNMƏSİ..."

Şagirdlərdən biri "Məktəbdə qonaq olarkən "kaş ki məktəbli olaydım!" fikirləri ürəyinizdən keçdimi?" - deyə qonağa sual ünvanladı. "Düzünü desəm, yox! Çünki "kaş"larla yaşayanda keçmişdən qopmaq olmur", - deyə yazıçı cavab verdi: "Keçmişlə yaşayan insan deyiləm. Mən keçmişə yalnız səhvlərimdən nəticə çıxarmaq üçün baxıram. Mən "Arxadakı körpüləri yandırın" kitabını yazan insanam. Nə qədər keçmişdən asılı qalırıqsa, bir o qədər həyatımız uğursuz olur. Mən irəli baxmağı xoşlayıram".

"Sizcə, gənclər ən çox hansı sahədə problemlə üzləşirlər", - deyə səslənən növbəti suala R.Abdullaoğlu maraqlı cavab verdi. Onun fikrincə, gənclərin əsas problemləri psixologiya sahəsindədir: "Bizim gənclərin ən böyük problemi təhsillə, pedaqoji heyətin yetərsizliyi ilə də bağlı deyil. Ən böyük problemimiz daxili baryerlərimizdir. Gənclərin kütlə qarşısına çıxacaq potensialı olsa da, bunu edə bilmirlər. Çox istedadlı uşaqlar görürəm, amma onlarda öz fikirlərini ifadə edə bilmək qorxusu var. Siz öz potensialınızı qorxularınıza görə bloklayırsınız. Məncə, həyatda ən uğursuz insan psixoloji problemləri ilə bacara bilməyənlərdir. Bacarığı, istedadı var, amma özündəki baryeri aşa bilmir. Müstəqil düşünmək cürət istəyir. Bizdə o cürət çatışmır. Mən başqa müəssisələrdə də oluram. Biz xaricilər qarşısında özümüzü bloklayırıq. "Oradan gələn daha yaxşı kadr olacaq. Filan layihəni o bizdən daha yaxşı edər", - deyə düşünürük. Amma özümüzdə daha yaxşı, daha potensiallı adamlar var. Özümüzə qarşı kəskin tənqidçiyik. Özümüzü bəyənməməyimiz daxili komplekslərimizdən xəbər verir. İnsanın özünə güvənməsi, "biz bacaracağıq" deməsi bütün sahələrdə uğur qazanmağa və inkişafa yol açır".

## İKİ MÜHARİBƏ BİR ROMANDA



"Qarabağ zəfəri haqqında kitab yazmağı düşünürsünüz?" - deyə auditoriyadan sual səsləndi. Qonaq artıq bu haqda roman yazdığını bildirdi: "Atam Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Hərbçi ailəsində böyümüşəm. Əmim də Birinci Qarabağ müharibəsinin qazisidir. Hər gün "atamın şəhidlik xəbəri gələcək" qorxusunu yaşamışam. Ona görə bu mövzuda yazmaya bilməzdim. "Koramal" romanımda birinci və ikinci Qarabağ müharibəsinin iştirakçılarını bir kitabda birləşdirdim".



### BİR KİTAB NƏ EDƏ BİLƏR?

"Bir kitab insanın həyatında hansı rolu oynaya bilər?" sualını cavablandıran yazıçı mütaliənin üstünlüklərindən danışdı: "Bir kitab bəzən təkcə bir xalqın həyatını yox, dünyanı dəyişdirə bilər. Sizə düzgün kitablar oxumağı tövsiyə edirəm. Yalnız dərs kitabları ilə kifayətlənməyin, bədii ədəbiyyat da oxuyun. Mənim həyatımı dəyişən kitablar sizin də həyatınızı dəyişə bilər. Həyatımda hansı uğurlar varsa, kitablara borcluyam. Siz həyatın başlanğıcındasınız. Əgər hədəfiniz olsa, məhəllənizdə, şəhərinizdə, ölkənizdə, xaricdə və ya dünyada uğur qazana biləcəksiniz. Həyatımda qoyduğum hədəf dönüş nöqtəsi olub. Ondan sonra növbəti addımları təbii olaraq atmağa başlayırsan. Hədəf qeyri-adi olanda o, insanı yaşadır".

# ÇOXDANDIR ANONS EDİLƏN REYESTR LƏNGİYİR

Xeyli müddətdir tikilməkdə olan, çıxarışı olmayan binalardan müqavilə ilə alınan mənzillərin elektron reyestrinin yaradılacağı bildirilir. Lakin zaman keçsə də, reyestr hazır olmur ki, olmur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az





Bir müddət öncə tikilməkdə olan, çıxarışı olmayan binalardan müqavilə ilə alınan mənzillərin elektron reyestrinin yaradılacağı bildirilirdi. Amma xeyli zaman keçsə də, sistem yaradılmayıb. Məsələ hətta Milli Məclisin iclasında müzakirə olunub. Deputat Bəxtiyar Əliyev deyib ki, tikilməkdə olan binalarda mənzil alan şəxslərlə müqavilə bağlanan zaman həmin müqavilələr Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınsın ki, gələcəkdə vətəndaşları narahat edəcək problemlər yaşanmasın.

### ALDANMAMAQ ÜÇÜN HAZIR BİNAYA ÜZ TUTUR, AMMA...

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirdi ki, reyestrin yaradılması mənzil almaq istəyən vətəndaşlar üçün çox vacibdir: "Bakıda və Abşeronda yeni çoxmərtəbəli binalar inşa olunur. Bu binalardan ev alan vətəndaşlara ilkin ödəniş edərkən alqı-satqı müqaviləsi, tam ödənildikdən sonra isə maliyyə arayışı verilir. Bina tikildikdən sonra aidiyyəti qurumlar tərəfindən yoxlanılır, qeydiyyatdan keçdikdən sonra isə çıxarışla təmin olunur. Bina tikilərkən müvafiq qurumlardan icazələr alınır və sonra inşasına başlanılır. Lakin vətəndaş bina tikilmədən mənzil alarkən əmlak heç bir dövlət qurumunda rəsmi qeydiyyatda olmur. Yalnız tikinti şirkətinin bazasında göstərilir. Vətəndaş mənzili ilə bağlı hansısa quruma müraciət etdikdə cavab ala bilmir".

E.Fərzəliyevin sözlərinə görə, vətəndaşlar aldanmamaq üçün binanın tikilməsini gözləyir, bu zaman isə qiymət səbəbindən mənzil almağa imkanı çatmır: "Binaların reyestri aparılmadığına görə bəzi tikinti şirkətləri bir mənzili bir neçə şəxsə satır. MTK-lardan zərərçəkmiş insanların sayı 5 200-dən artıqdır. Tikinti şirkətlərinin rəhbərləri həbs olunsa da, nə vətəndaşlar evlə təmin olunur, nə də onların ödədikləri pullar geri qayıdır".

### BAZAR CANLANACAQ

Ekspertin fikrincə, mənzillər reyestrdə qeydiyyatdan keçərsə, insanlar mənzil almağa meyllənər və bazar canlanar: "Bakının Baş Planına əsasən, köhnə yaşayış evləri sökülüb, yerinə tikinti şirkətləri tərəfindən çoxmərtəbəli yaşayış binaları tikiləcək. Binalar reyestrə alınmazsa, tikinti şirkətlərinə bina tikmək maraqlı olmayacaq. Reyestr aparılarsa, həmçinin ipoteka predmetinə çevrilə bilərsə, bu halda bazarda canlanma müşahidə ediləcək".

### "REYESTR MÜTLƏQ ŞƏKİLDƏ YARADILACAQ"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc düşünür ki, prosesin uzanmasına səbəb fəaliyyət istiqamətinin genişliyidir: "Hər ilin sonunda növbəti il reyestrlə bağlı problem birdəfəlik həlini tapacaq. Amma təəssüflər olsun ki, problemin tam şəkildə həlli hələ də mövcud deyil. Prosesdə ləngimənin əsas səbəbi əhatə dairəsinin böyük olması ilə bağlıdır. Reyestrdə bütün əmlak növləri qeydiyyata alınır. Sahəsi, yerləşməsi və kimə məxsus olması ilə bağlı məlumatlar sistemə daxil edilir. Bu sistemin yaradılması istiqamətində mühüm addımlar atılıb. Ümid edirik ki, 2025-ci ilin əvvəllərində sistem işləyəcək. Təhlükəsizlik baxımından reyestr mütləq şəkildə yaradılacaq".

Sədrin sözlərinə görə, təhlükəli ərazilərdə inşa olunan əmlaklar xaric, digərlərinin qanuniləşdirilməsinə şərait yaradılmalıdır: "Vətəndaşlar portal vasitəsilə öz əmlaklarını idarə edəcəklər. Sənədləşmə işinin qarşısındakı baryerlər aradan qalxacaq. Vətəndaşlar yeni mənzil aldıqları zaman hüquqi problemlərlə üzləşməyəcəklər".



AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ
Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən

ÇIXARIŞ

Seriya MA № 0000000

| | |
|---|---|
| Xeyrinə hüquq yüklü edilən şəxs (şəxslər) | |
| Hüququ yüklü edilən şəxs (şəxslər) | |
| Yüklü edilən əmlakın (əmlak hissəsinin) növü və ünvanı | |
| Yüklü edilən əmlakın (əmlak hissəsinin) ölçüsü (torpaq sahəsinin ölçüsü hektarla, digər daşınmaz əmlakın ölçüsü kvadratmetrlə) | |
| Yüklü edilən torpaq sahəsinin kateqoriyası (məqsədli təyinatı) | |
| Yüklülüyün növü | |
| Yüklülüyün müddəti | |
| Əsas öhdəliyin mahiyyəti və icra müddəti | |
| Hüququn əvvəlki yüklülüyü | |
| Yüklü edilən əmlakın reyestr nömrəsi | |
| Qeydiyyat nömrəsi | |
| Qeydiyyat tarixi | |
| İpoteka kağızı | |

Daşınmaz əmlakın dövlət reyestrində ___ nömrəli reyestr kitabının ___ nömrəli vərəqində qeydiyyata alınmışdır.

Ərazi idarəsinin rəisi
Qeydiyyat icraçısı

Qeyd: laminasiya olunmasına yol verilmir

## Bir milyon 600 mindən artıq sənəd rəqəmsallaşdırılıb

Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinin sədr müavini Elşad Məmmədov bildirib ki, Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" portalının əsasnaməsi artıq hazırdır: "Əsasnamə təsdiqlənmək üçün aidiyyəti orqanlara göndərilib. Razılaşmalarla bərabər, texniki işlərə də artıq başlanılıb. Vətəndaşlara verilən sənədlər rəqəmsallaşdırılaraq məlumat bazasına daxil edilir. Bir milyon 600 mindən artıq sənədin rəqəmsallaşması başa çatıb. Önümüzdəki ildə vətəndaşlar bunun nəticələrini görməyə başlayacaqlar. Vətəndaşlar sadəcə FİN kodları ilə sistemə daxil olaraq bütün sənədlərini görə biləcəklər. Artıq dövlət arxivindən arayış almaq kimi öhdəliklər aradan qalxacaq".



## Canlı xəritə ilə izləmək mümkündür

E.Məmmədov bildirdi ki, texniki sənədlər və torpaq sahələrinin plan-ölçü sənədləri 2024-cü ildə rəqəmsallaşdırılıb: "Artıq vətəndaşlar bunu hansısa orqana yaxınlaşaraq götürməli olmayacaqlar. Şəxsi kabinetdən hər birini asanlıqla əldə edə biləcəklər. Bu, həmçinin sənədlərin saxtalaşdırılması riskini də aradan qaldırmış olur. Bütün torpaq sahələrinə dair məlumatları canlı xəritə üzərindən də izləmək mümkündür. Artıq vətəndaş aldığı torpaq sahəsinin sənədinin həqiqətən həmin əraziyə aid olub-olmadığını biləcək".



Elnur Fərzəliyev
Elşad Məmmədov
Foto: Rüfət Mikayılov - Global Photostock

### "BİLMƏDƏN ALMAQ VƏTƏNDAŞI MƏSULİYYƏTDƏN AZAD ETMİR"

Sədr müavini vətəndaşlara aldanmamaq üçün tövsiyələrini də verdi və əvvəldən aldanmış şəxsləri əmlaklarını qanuniləşdirməyə çağırdı: "Bir də təyinatı nədirsə, ona uyğun torpaq almaq lazımdır. Hazırda ən böyük problemlər bu sahədədir. Alınan torpağın təyinatından kənar istifadəsi cinayət məsuliyyətinə gətirib çıxara bilir. Bilmədən almaq da vətəndaşı məsuliyyətdən azad etmir. Vətəndaşlar hər hansı bir torpaq alarkən Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinə yaxınlaşaraq mütəxəssislərdən təmənnasız yardım ala bilərlər ki, sonradan aldadılmasınlar. Qeyri-yaşayış obyektlərinin istismarının sadələşdirilməsi ilə bağlı fərman da icra olunur. 12 mindən artıq vətəndaş müraciət edib".

ÖLKƏMİZİN QIŞ TURİZM POTENSİALINDAN YETƏRİNCƏ YARARLANA BİLMİRİK

# NƏ YOL XƏRİTƏMİZ VAR, NƏ DƏ STANDARTLARIMIZ

Mütəxəssislər hesab edirlər ki, ölkədə qış turizmi ilə bağlı yol xəritəsi hazırlanmalı, müvafiq sənədlər qəbul edilməlidir. Ölkəmizdəki milli parklar da bu işdə ön planda olmalıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Qış turizm mövsümünə artıq start verilib. Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə 2024-cü ilin turizm yekunlarına və qış mövsümünün açılışına həsr olunmuş mətbuat konfransında bildirib ki, ölkənin qış turizm imkanlarının genişləndirilməsi, beynəlxalq turistlərin cəlb olunması və daxili turizmin inkişafı məqsədilə yeni layihələr həyata keçirilir.

Qış turizmi dünyada geniş yayılan və kifayət qədər gəlirli olan sahələrdən biridir. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, xüsusilə dekabr-fevral aylarında qış səyahətlərinə tələb ilin qalan dövrü ilə müqayisədə 50 faizdən çoxdur. Bu, qış turizmi ilə məşhur olan ölkələrin maliyyə gəlirlərinin 20-30 faiz artmasına səbəb olur. Bu dövrdə müxtəlif festivallarla, xüsusi təşviqat kampaniyaları ilə turistlər cəlb edilir. Azərbaycanda da qış turizm mövsümünün açılışına həsr olunan konfransda ölkəmizin bu sahədə imkanları ilə bağlı xüsusi təşviqat işlərinin aparıldığı vurğulansa da, son illər qış turizmi ilə bağlı xəbərlərə az rast gəlirik.

### QIŞ TURİZMİ YAY TURİZMİ KİMİ TƏNTƏNƏLİ DEYİL

Azərbaycan Ekoturizm Assosiasiyasının icraçı direktoru Samir Dübəndi "Kaspi" qəzetinə açıqlamasında təsdiqləyir ki, ölkəmizdə qış turizm mövsümü yay turizm mövsümü kimi təntənəli deyil: "Əslində, biz nəinki qış və yay, payız və yaz mövsümlərində də təntənəli açılış mərasimləri təşkil etməli, bu dövrdə ölkəyə üz tutan turistləri fərqləndirərək kampaniyalar həyata keçirməliyik. Məsələn, ölkəyə gələn iki yüz mininci turisti təqdim etməli, ölkədəki turizm imkanlarını beynəlxalq turizm bazarlarına intensiv şəkildə təqdim etməliyik".

Mütəxəssis bildirir ki, turizm sektoru mövsümdən asılı olmamalıdır: "Uzun illərdir biz bu sektorun mövsümdən asılılığını azaltmaq istiqamətində müzakirələr aparırıq. Lakin hələ də bu problem mövcuddur. Turizm sənayesi müxtəlif mövsümi xarakter daşıyan təsirlərə məruz qalır və stabillik pozulur. Hotellərin, turizm agentliklərinin, bələdçilərin, nəqliyyat sektorunun, ümumiyyətlə bu sahənin işində ləngimə gedir. Turizm sektoru ancaq qış və ya yay mövsümündə deyil, ilin bütün fəsillərində aktiv olmalıdır. Bunun üçün də müxtəlif turizm növlərini, mövsümlərə aid olan turizm fəaliyyətlərini inkişaf etdirməliyik".

### "QIŞ TURİZMİ DEYƏRKƏN AĞLIMIZA XİZƏK TURİZMİ GƏLİR"

Turizm mütəxəssisi vurğulayır ki, biz əgər hansısa sənayenin, sektorun inkişafını düşünürüksə, həm iqtisadi fəaliyyət sahəsində koordinasiya işləri düzgün görülməli, həm də bu sahədə çalışan biznesləр üçün daha əlverişli şərait yaradılmalıdır: "Məsələn, qış turizm fəaliyyətlərinin inkişafı, yenilikləri, bu sahəyə diqqətin artırılmasını istəyiriksə, bu sahədə hansısa tənzimləyici sənədlər işlənib hazırlanmalıdır. Əfsuslar olsun ki, qış turizmi haqqında nə hansısa bir yol xəritəmiz var, nə də standartlarımız. Qış turizmi deyərkən ağlımıza xizək turizmi gəlir. Amma bu turizmin fəaliyyət sahələri müxtəlifdir. Burada ən sadəsi meşədə xizək gəzintisi, yaxud qar zamanı piyada gəzintiləri, hansısa vəhşi heyvanların qar üzərində ləpirlərini izləmək, meşədə giləmeyvələri yığmaq imkanlarıdır. 10 milli parkımız var. Hər bir milli parkın əsasnaməsində ekoturizm fəaliyyətlərinin inkişafı qeyd olunub. Amma analiz etdikdə görürük ki, vəziyyət ürəkaçan deyil. Milli parkların ərazisində turizm fəaliyyətləri az təklif olunur. Milli parkların nüfuzu, fəaliyyəti, onların təklif etdikləri xidmətlər bu gün öndə deyil və onlar turizm sənayesinin sonuncu reytinqində yer tuturlar".

Qiymətlərin baha olmasına gəldikdə, mütəxəssis vurğulayır ki, xizək turizmi dünyada bahalı turizm növüdür: "Digər ölkələrdə xizək turizminə diqqət etsək, Azərbaycanda qiymətlərin aşağı olduğunu görərik. Amma ümumilikdə turizm fəaliyyətləri hamı üçün əlçatan olmalıdır. Çalışmalıyıq ki, hər bir vətəndaş bundan istifadə edə bilsin. Bunun üçün büdcəli yerləşmə vasitələri inşa olunmalı, alternativ xidmətlər təklif edilməlidir. Rəqabət artsa, qiymətlər tənzimlənəcək".



## QIŞ TURİZMİNƏ MARAQ OYATMAQ ÜÇÜN CƏLBEDİCİ TƏKLİFLƏR OLMALIDIR



Ceyhun Aşurov

"Azərbaycan Turizm Peşəkarları Təşkilatı"nın sədri Ceyhun Aşurov deyir ki, gələcəkdə Şahdağda qış turizmi ilə bağlı beynəlxalq yarışların keçirilməsi planlaşdırılır: "Qəbələdə, Qusarda "Şahdağ", "Tufandağ", Naxçıvanda Ağbulaqda qış turizmi məkanları fəaliyyət göstərir, müasir standartlara cavab verir. Bundan başqa, kanatlar, sürüşmə əraziləri mövcuddur. Digər regionlarda da təbiəti, qış fəslini görmək istəyənlər üçün müxtəlif imkanlar mövcuddur. Həmçinin ölkədə qış turizmini məşhurlaşdırmaq üçün müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi nəzərdə tutulub".

Mütəxəssis bildirir ki, qış turizmi ilə bağlı problemlərdən biri odur ki, gecələmək üçün yerlərin sayı azdır: "Bunların sayı ildən-ilə artırılmalıdır. Hazırda regionlarda müxtəlif layihələr həyata keçirilir. Ümumiyyətlə, turistlərin rahat səyahət etmələri üçün şərait yaradılmalı, cəlbedici təkliflər olmalıdır. Azərbaycan unikal coğrafiyada yerləşir. Hansı ki, bizdə ilin dörd fəsli yaşanır. Xüsusilə, körfəz ölkələrindən gələn turistlər yayı, yazı, qışı, payızı burada yaşaya bilirlər və bunda maraqlıdırlar. Festivallar, müxtəlif yarışmalar keçirərək, qış əyləncəsi ilə əlaqəli müxtəlif fəaliyyət növlərini artırmaqla ölkənin qış turizm imkanlarını daha da məşhurlaşdırmaq olar".


Fotolar: Rüfət Mikayılov - Global Photostock

# 46 MİNƏ YAXIN TƏLƏBƏYƏ TƏHSİL KREDİTİ VERİLİB

**Bu məqsədlə 41 milyon manata yaxın vəsait təhsil müəssisələrinin hesablarına köçürülüb. Hesabat dövrü ərzində təhsil göstəriciləri yüksək olan məzunlara bağışlanmış vəsaitin ümumi məbləği təqribən 444 min AZN təşkil edir.**

“Təhsil Tələbə Krediti Fondunun əsas məqsədi əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir”. Bu barədə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılmış Təhsil Tələbə Krediti Fondunun (TTKF) 3 illik fəaliyyətinə həsr olunmuş brifinqdə fondun İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimov bildirdi. O qeyd etdi ki, TTKF fəaliyyətində gəlir və mənfəət düşüncəsi yoxdur: “Fondun elektron portalına bu günə kimi 58 mindən çox müraciət daxil olub, 46 minə yaxın tələbə təhsil krediti müqaviləsi rəsmiləşib. Onların 15 min 813-ü sosial təhsil tələbə krediti, 29 min 613-ü isə standart təhsil tələbə krediti olub. Bu məqsədlə 41 milyon manata yaxın vəsait təhsil müəssisələrinin hesablarına köçürülüb”. B.Əzimov TTKF-nın yaratdığı imkanlardan faydalanmaq üçün yaş məhdudiyyətinin olmadığını da diqqətə çatdırdı: “Kreditlər üçün bütün bölgələrdən, ən ucqar rayonlardan belə müraciətlər var”.

Geri ödənişlər zamanı tələbələrə edilən güzəştlərə toxunan B.Əzimov tələbə təhsil kreditlərindən yararlanmış 6500-dən çox tələbənin məzun olduğunu və götürdükləri kreditləri aylıq kiçik məbləğlərlə geri ödəməyə başladıqlarını bildirdi: “Sosial kredit almış 173 tələbənin Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olduğuna görə götürdükləri kreditlərin tam yarısı dövlət tərəfindən onlara bağışlanıb. 400-ə yaxın standart təhsil krediti almış məzunda isə bu güzəşt 25% təşkil edib. Hesabat dövrü ərzində təhsil göstəriciləri yüksək olan məzunlara bağışlanmış vəsaitin ümumi məbləği təqribən 444 min AZN təşkil edir”. B.Əzimov qeyd etdi ki, bu cür güzəştlər təhsilin keyfiyyətinin artmasına birbaşa təsir edir və tələbələri daha böyük əzmlə çalışmağa həvəsləndirir: “Fond bundan sonra da ödənişli əsaslarla əyani təhsil alan tələbələrə dəstək olmağa hazırdır. Müraciətlər semestrin sonuna qədər davam edir”. Sədr əvəzi diqqətə çatdırdı ki, məzunların işlə təmin olunmasına dəstək göstərmək üçün dövlət və özəl qurumlarla əməkdaşlıq əlaqələri qurulub, 30-dan çox müəssisə ilə Anlaşma Memorandumu imzalanıb: “Bununla da mindən çox tələbə təlimlərə cəlb olunub, 600-dan çox tələbə və məzun isə təcrübə proqramlarından yararlanıb. Bu istiqamətdə onlarla gəncin işlə təmin edilməsinə nail olunub”.



Media işçilərinin suallarını cavablandıran B.Əzimov ölkə üzrə qızların təhsil kreditləri müraciətlərinin saylarının artdığını, magistratura pilləsi üçün daha çox müraciətlər olduğunu qeyd etməklə bərabər, hələlik qiyabi təhsil alan tələbələr üçün təhsil krediti ayrılmasının planda olmadığını bildirdi: “Bu məsələ Şuranın iclasında müzakirə edilməli, maliyyə yükü hesablanmalıdır”.

# SOCAR VƏTƏNDAŞ CƏMİYYƏTİ TƏSİSATLARI İLƏ İŞİ GÜCLƏNDİRİR



Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Baş ofisində “Vətəndaş cəmiyyəti təsisatları ilə işin gücləndirilməsi” mövzusunda tədbir keçirilib. “Report” bu barədə SOCAR-a istinadən xəbər verir. Məlumata görə, tədbirdə şirkətin məsul şəxsləri, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və 22 qeyri-hökumət təşkilatının nümayəndələri iştirak ediblər. Əvvəlcə qonaqlar SOCAR-ın Baş ofisində Azərbaycan Nefti sərgisi ilə tanış olublar.

Tədbir iştirakçılarını salamlayan SOCAR-ın Sosial məsuliyyət departamentinin rəis müavini Mirsahib Musayev departamentin fəaliyyətindən, qarşıya qoyulan hədəflərdən, o cümlədən vətəndaş cəmiyyəti təsisatları ilə işin gücləndirilməsi üzrə nəzərdə tutulan tədbirlərdən bəhs edib.

İstedadların idarə edilməsi və biznes tərəfdaşlığı departamentinin rəis müavini Mahal Mehdiyev SOCAR-da işə qəbul prosesi barədə məlumat verib. O, SOCAR-da işə qəbulun əmək qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, şirkətin müvafiq standartlarına və digər normativ sənədlərinə uyğun olaraq müsabiqə yolu ilə həyata keçirildiyini diqqətə çatdırıb.

Sonra SOCAR-ın Biznes etikası və anti-korrupsiya şöbəsinin rəisi Teymur Əliyev şirkətin yeni “Biznes etikası və davranış” kodeksindən bəhs edən təqdimatla çıxış edib.

Tədbir sual-cavab sessiyası ilə davam etdirilib. Sonda xatirə şəkli çəkdirilib.

# “NAR”IN TƏRƏFDAŞLIĞI İLƏ “MEDİA SAVADLILIĞI” KONFRANSI TƏŞKİL EDİLDİ

“Nar”ın tərəfdaş qismində çıxış etdiyi “Media Savadlılığı” Həftəsi çərçivəsində “Media Savadlılığı” Konfransı təşkil edildi. Konfransın əsas məqsədi media savadlılığının əhəmiyyətini vurğulamaq, beynəlxalq təcrübələri paylaşmaq və həssas sosial qrupların, xüsusən gənclərin bu sahədə bilik və bacarıqlarını təkmilləşdirmək idi.

Konfransda iştirak edən yerli və beynəlxalq media ekspertləri, özəl şirkət və dövlət qurumlarının nümayəndələri, elmi tədqiqatçılar və vətəndaş cəmiyyəti nümayəndələri panel müzakirələrində yalan və manipulyasiya məqsədli məlumatlardan qorunma, fakt yoxlama texnikalarının




tətbiqi və rəqəmsal məkanlarda məsuliyyətli davranış kimi media savadlılığının çoxşaxəli aspektlərini ön plana çəkdi.

“Nar” sərfəli mobil operator olmaqla yanaşı, eləcə də korporativ sosial məsuliyyət strategiyası çərçivəsində media savadlılığının artırılması və cəmiyyətin məsuliyyətli informasiya istifadəsinin təşviq olunması istiqamətində örnək dəstək nümayiş etdirir. Mobil operatorun bu təşəbbüsü cəmiyyətin informasiya mənbələri ilə səmərəli əlaqəsinin təbliğinə töhfə verir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2924
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



“ZƏRGƏR ÜÇÜN QIZIL NƏDİRSƏ, QƏSSAB ÜÇÜN DƏ ƏT ODUR”

# ADI ƏT OLSA DA...

Əgər farş ət alırsınızsa, keyfiyyətinə diqqət yetirmək vacibdir. Ət təzə görünməli, xoşagəlməz qoxu olmamalı və rəngi təbii görünməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ətin bahalaşması ilə bağlı məsələ mətbuatda dəfələrlə qaldırılıb, səbəbləri mütəxəssislərlə müzakirə edilib. Budəfəki müzakirə isə bahalaşma deyil. Qiymətin əsassız şəkildə aşağı olmasıdır. Bəli, söhbət ət dükanlarında, marketlərdə satılan farş ətlərdən gedir. Məsələn, hazırda marketlərdə sümüklü ətin kilosu 14-15 manat, sümüksüz ət 19-20 manat, farşın qiyməti isə 8-10 manat arasında dəyişir.

Bəs farşı digər ətlərdən fərqləndirən nədir? Əgər hər ikisi qırmızı ətdən hazırlanırsa, niyə qiymətlər arasında bu qədər fərq var? Ən əsası, farş alarkən nələrə diqqət etməliyik?



### “ƏGƏR QƏSSABINIZ TƏCRÜBƏLİ VƏ SƏLİQƏLİDİRSƏ...”

Qəssab Elnur Əliyev deyir ki, əgər qəssabınız əsl qəssabdırsa, farşın qiyməti ilə tikə ətin qiyməti arasında maksimum 1-2 manat fərq yarana bilər. 10 manat fərq yaranırsa, deməli, burada problem var. Çünki heç bir qəssab ziyana işləməz: “1-2 manat ucuz olmasının iki səbəbi var. Birincisi, tikə ətlərin yağları və sinirləri varsa, onlar daha dəqiq təmizlənir. Bu, daha çox əmək deməkdir. Çünki tikə ət yeyərkən, əgər sinirlər təmizlənməyibsə, istehlakçı onu hiss edir və “bu qəssabın əti heç də yaxşı deyilmiş” deyir. Qiyməyə gəlincə isə, farşda bu qədər detallı təmizləmə aparılmır. Üstəlik, maşının içində əvvəlcə çəkilib qalan ət də ola bilər. Maşının özünün daxili soyutma sistemi olsa da, ət, soyuducudan çıxdığı andan etibarən təzəliyini itirir. Heç bir qiymə maşını gündə iki dəfədən çox təmizlənmir. Çünki bu da zəhmət tələb edən işdir. Belə olan halda, maşında yığılan yağ və sinirlər də qiymənin içinə qarışır. Əgər qəssabınız təcrübəli və səliqəlidirsə, detallı təmizləmə olmamasına baxmayaraq, qiyməyə qarışan yağ və siniri yeyərkən hiss etməzsiniz. Bu, bir növ sənətkarlıqdır. Zərgər üçün qızıl nədirsə, qəssab üçün də ət odur”.

### FARŞ ADI İLƏ HANSI NÖV ƏTLƏRİ YEYİRİK?

Qiymətlər arasında böyük fərq olan qəssab dükanlarına gəldikdə isə, əgər buradan alış-veriş etmisinizsə, qiyməni ət bilib dalaq, toyuğun istifadə olunmayan hissələri və ya digər içalatları yemisiniz deməkdir: “Farş hazırlanarkən adətən yüksək keyfiyyətli ət deyil, daha ucuz hissələr, məsələn, artıq parçalar, yağlı hissələr və ya sümüyə yaxın olan yerlər istifadə olunur. Bu da məhsulun maya dəyərini aşağı salır. Bəzi hallarda farşın çəkisini artırmaq üçün ona yağ, dərialtı piy və ya digər ət əlavələri qarışdırıla bilər. Bu əlavələr əti ucuzlaşdırır. Bəzən farş ətin tərkibinə digər heyvanların əti qarışdırılır ki, bu da maya dəyərini azaldır”.

### ƏGƏR FARŞ ALIRSINIZSA...

Qəssab tövsiyə edir ki, əgər farş alırsınızsa, keyfiyyətinə diqqət yetirmək vacibdir. Ət təzə görünməli, xoşagəlməz qoxu olmamalı və rəngi təbii olmalıdır: “Həmçinin istehlakçılara özlərinin bələd olduğu qəssab dükanlarından alış-veriş etmələrini tövsiyə edirəm”.





## Qoca heyvan ətləri, qığırdaqlar, piylər

Qida mütəxəssisi Sayat Quliyeva deyir ki, farşın ucuz olmasının səbəbi ilk növbədə ətin müddətinin keçməsi və zərəri az da olsa qarşılamaq məqsədilə, istifadə müddətinə az qalan ətin istifadə olunmasıdır: “Bundan əlavə, bəzi nəzarətdən kənar müəssisələrdə, kəsim mərkəzlərində qoca heyvan ətlərindən, qığırdaqdan, iç piylərindən, donmuş ətlərdən istifadə etməklə farşlar hazırlanır. Hazırlanan farşlarda kənar qoxu və dadların olumaması məqsədilə bəzi dadlandırıcılar və ətin rənginin qorunması məqsədilə müəyyən qatqılardan istifadə olunur. Bir çox hallarda isə toyuq dərisindən, ətindən, hətta toyuq ayağından istifadə olunur”.





## Satış mərkəzlərindən arayış tələb edin!

Mütəxəssis bildirir ki, əgər farş real mal ətindən hazırlanmayıbsa, ətin görünüşündə ağ çalarlar olur, dad və çeynəmə zamanı kənar hissəciklərin mövcudluğu hiss edilir: “Bunları nəzərə alaraq istehlakçılar farşı ev şəraitində hazırlamağa üstünlük verməli, kənarda hazırlandığı zaman prosesi müşahidə etməli, kəsim məntəqələri, eləcə də iri ticarət mərkəzlərindən ətin mənşəyi ilə bağlı baytarlıq arayışlarını tələb etmə-lidir-lər”.



Sayat Quliyeva

ÇƏRƏZ ALDIQDA NƏLƏRƏ DİQQƏT ETMƏLİ?

# HƏM XEYİRLİ, HƏM DƏ ZİYANLI



Qabıqsız çərəzlərin açıq halda satılması mikrobioloji və çarpaz çirklənməyə səbəb olur. İnsanlar isə həmin məhsulları təmizləmədən istifadə edirlər. Ekspertlər düşünürlər ki, bu məhsullar mütləq yuyulmalı və dezinfeksiya edilməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bazarlarda, supermarketlərdə, çərəz dükanlarında ən çox qarşılaşdığımız mənzərə açıq vəziyyətdə satılan çərəzlərdir. Burada bir məqam var ki, çox vaxt aldığımız bu məhsulları yumadan yeyirik. Lakin ekspertlər bu halda bizi ciddi təhlükələrin gözləyə biləcəyi qənaətindədirlər.

### “YENİ VƏ YA KÖHNƏ OLDUĞU BİLİNMİR”

İstehsal meneceri Sayat Quliyevanın sözlərinə görə, bu məhsullar açıq şəkildə satıldıqda həm keyfiyyəti azalır, həm də çirklənməyə məruz qalır: “Günümüzdə çərəzlərin bazarlarda açıq halda çəki ilə, yaxud karton qutularda, şüşə vitrinlərdə, plastik qablarda satışı həyata keçirilir. Açıq halda satılan məhsullar fiziki və mikrobioloji çirklənməyə məruz qalır. Toz, havadakı həşəratların məhsulla təması, istehlakçıların açıq əllə toxunması kimi çirklənmə səbəblərini sadalamaq olar. Hətta sanitar qaydalara uyğun hesab etdiyimiz qapalı satış məntəqələrində də məhsulların çirklənməsini müşahidə etmək mümkündür. Bundan əlavə, çərəzlər vitrinə davamlı üst-üstə yığılır, yeni və ya köhnə olduğu bilinmir”.

### “MƏHSULU KƏNAR VASİTƏLƏRLƏ ÇİRKLƏNDİRİRLƏR”

S.Quliyevanın fikrincə, təmiz hesab etdiyimiz vitrinlər əslində ən böyük təhlükədir: “Şüşə vitrinlərdə sadəcə bez parçalarla fiziki təmizlik aparılır, bu da mikrobioloji çirklənmənin əsas mənbəyidir. Satıcılar açıq əllə məhsula toxunmasalar da, məhsulu kənar vasitələrlə çirkləndirirlər. Daşıma qutularını birbaşa açıq çərəzlərin üzərində saxlayaraq vitrinlərə boşaldırlar. Açıq halda satılan çərəzlərə ilk toxunan biz olmuruq. Sonra bu çərəzləri yumadan qəbul edirik. Fiziki, mikrobioloji çirklənmə ilə yanaşı, günümüzdə geniş yayılan, mənşəyi məlum olmayan viruslar mövcuddur. Bunun bariz nümunəsi son illərdə yaşadığımız COVID virusudur”.





## DADINDA DƏYİŞİKLİK YARANIR

Mütəxəssis bildirdi ki, çərəzlərin nəmliyini qorumaq üçün onlara müxtəlif maddələr vurulur: “Emal sahələrində çərəzlərin qabıqlarından təmizləmə prosesində quru təmizləmədən geniş istifadə edilir. Qabıqdan təmizləmə zamanı düzgün təmizləmə prosesi həyata keçirilməzsə, çərəzlərin çirklənməsi qaçılmazdır. Hazırlanan qabıqsız çərəzlərin hava ilə təması olmayan qablarda saxlanılması üçün bəzi kimyəvi maddələrdən istifadə edilir. Bunlardan ən geniş yayılmışı kükürddür. Çərəzlərin daxilində nəmlik olur. Yüksək temperaturda nəmlik azala və ya rütubətli məkanlarda arta bilər. Nəmlik azaldıqda məhsullar quruyur. Xarici görünüşü ilə yanaşı, dadında da dəyişiklik yaranır”.



Ağa Salamov

S.Quliyeva təmiz və təhlükəsiz hesab etdiyimiz paketli məhsullardan da danışdı: “Məhsullara ilk toxunan olmaq üçün, çalışmalıyıq çərəzləri qabıqlı şəkildə alaq və evdə özümüz təmizləyək. Eyni zamanda, paket məhsullara üstünlük verək. Amma buna marketlərdəki paketlənmə aid deyil. Marketlərdə çərəzləri ya plastik qablarda qablaşdırırlar, ya da şəffaf paketlərə qoyurlar. Onlardan da uzaq durmalıyıq. Çünki bu zaman köhnə və yeni məhsulu qarışdırırlar. Aldığımız məhsulun istehsal tarixini, son istifadə müddətini itirmiş oluruq”.

### “15-60 DƏQİQƏ SOYUQ SUDA SAXLANILMALIDIR”

Müsahibimizin sözlərinə görə, bu məhsulları dezinfeksiya etdikdən sonra istehlak etmək daha düzgündür: “Çərəzlərin istehsal prosesi onu göstərir ki, bu məhsulları yumadan qəbul etmək doğru deyil. Burada istifadə edilən kimyəvi maddələr orqanizmimizə daxil olur və zamanla müəyyən xəstəliklərin yaranmasına gətirib çıxarır. Alınan çərəzlər mütləq şəkildə sərtliyinə görə 15- 60 dəqiqə arasında soyuq suda saxlanılmalıdır. Digər çiy qəbul etdiyimiz qidaların təmizlənməsində istifadə edilən sirkə, qida sodası və s. vasitələri çərəzlərin yuyulmasında və dezinfeksiyasında istifadə edə bilərik. Sonra soyuq suyun altında durulamaq və nəmini qurutmaq lazımdır”.

Qida məsələləri üzrə ekspert Ağa Salamov bu məhsulların təhlükəsinin qurudulma üsulundan asılı olduğunu bildirdi: “İki cür qurutma üsulu var. Birincisi, günəş şüaları altında, ikinci isə xüsusi aparatlarla qurudulmadır. Fərqləri odur ki, qurğu ilə qurudulmuş məhsullar yerində qablaşdırılırsa, yəni hava-damcı yolu ilə gələn virus və bakteriyalara açıq deyilsə, ətraf mühitin toz və çirkabından mühafizə olunursa, onları yumağa ehtiyac yoxdur. Amma günəş şüaları altında qurudulduqda virus və bakteriyalara, toza açıq olur. Mikrobioloji çirklənmə istehlakçının zəhərlənməsinə rəvac verə bilər”.

### “SUDA ÇOX QALDIQDA KEYFİYYƏTİNİ İTİRİR”

A.Salamov düşünür ki, həmin qidalar 70 dərəcə suda yuyulmalıdır: “Amma insanlar bəzən suda çox saxlayır, bu zaman isə artıq keyfiyyətini itirir. Dezinfeksiya etmək məqsədilə temperaturu 65 dərəcədən yuxarı isti suyun altında bir dəqiqə saxlamaq olar. Bəzi patogen bakteriyalar 70 dərəcədə ölməyə başlayır. Amma çox saxlamaq doğru deyil”.



# NAZİRLƏR YETİŞDİRƏN 128 yaşlı məktəb

Bakının düz mərkəzində yerləşən Namiq Ağayev adına 1 nömrəli tam orta məktəb el arasında “yəhudi məktəbi” kimi tanınıb. Onun məzunları sırasında tanınmış həkimlər, mühəndislər, hərbçilər və sair peşə təmsilçiləri var.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bu məktəbi “köhnə” adlandırmağı xoşalmırlar, “qədim məktəb” deyirlər. Bakının düz mərkəzində - Nizami küçəsi ilə Lev Tolstoy küçəsinin kəsişməsində (Lev Tolstoy 187) yerləşir. Namiq Ağayev adına 1 nömrəli tam orta məktəbin binası 1896-cı ildə məhz tədris üçün inşa edilib.

### TATAR QIZLARI ÜÇÜN AÇILAN MƏKTƏB

Məktəb binasının maraqlı tarixçəsi var. 1896-cı ildə Bakı şəhər tədris işləri üzrə himayədar M.Zavadski mesenat Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət edərək tatar qızları üçün xüsusi məktəb binasının tikilməsinə 150 000 rubl vəsaitin ayrılmasını xahiş edib. Bu sənəd o zaman Baryatinski küçəsində Lalayevlərə məxsus evdə yerləşən notariat kontorunun notariusu Aleksey Evqrafyeviç tərəfindən təsdiq olunub. Maarifpərvər təkliflərin tərəfdarı olan xeyriyyəçi tatar qızları üçün məktəb binasının tikintisinə lazım olan məbləği ayırıb. Beləliklə, Tağıyevin vəsaiti hesabına tikilən bina 4 sinifli şəhər gimnaziyası kimi fəaliyyətə başlayıb. II özəl Bakı Qızlar Gimnaziyası bu binada fəaliyyət göstərib. O zaman məktəb Gimnaziçeskaya 119 ünvanda yerləşib.

### MİLLİ HƏRBİ KADRLARIN HAZIRLANMASINA VERİLƏN TÖHFƏ

Təhsil müəssisəsi 15 dekabr 1921-ci ildə rəsmi olaraq Azərbaycan Hərbi Gimnaziyası kimi fəaliyyətini davam etdirib. Bu zaman məktəbin yalnız oğlanlardan ibarət 137 şagirdi olub. Demək olar ki, şagirdlərin çoxu Bakı və Gəncə fəhlələrinin övladları idi. Yalnız bir qismi Azərbaycanın rayonlarından gəlmiş kəndli uşaqları idi. Gimnaziyada xüsusi sinif otaqları, idman zalları vardı. Hərbi məktəbin yataqxanası isə indiki Həzi Aslanov küçəsində yerləşən Zabitlər evində idi.

1924-cü ildə gimnaziya fəaliyyətini yeni adla - Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi kimi davam etdirir.

1941-1945-ci illərdə isə məktəbin binasında hərbi hospital yerləşib.

1 nömrəli orta məktəb 1953-cü ildən bu günə kimi orta məktəb olaraq fəaliyyət göstərir. 1960-cı illərin axırlarında təhsil müəssisəsinə İkinci Dünya müharibəsində həlak olmuş, məktəbin zabit məzunu Namiq Axundovun adı verilib.

### LANDAUNUN OXUDUĞU MƏKTƏB

Məktəbdə müxtəlif illərdə təhsil alan şagirdlər arasında sonradan elm, təhsil və digər sahələrdə məşhurluq qazanan insanlar olub. Elə təkcə görkəmli fizik, Nobel mükafatçısı, nəzəri fizikanın bir çox sahələrinə fundamental elmi töhfələr vermiş, yəhudi əsilli Lev Landaunun bu məktəbdə təhsil alması təhsil müəssisəsinin adını tarixləşdirib. Landau 1921-ci ildə bu təhsil müəssisəsini bitirəndə 13 yaşı varmış. Universitetə yaşı çatmadığından Bakı İqtisadiyyat Texnikumuna qəbul olunub. 14 yaşında ikən Bakı Dövlət Universitetində təhsil almağa başlayıb. 1924-cü ildən sonra görkəmli alimin gələcək həyatı Leninqradla və Avropa ölkələri ilə bağlı olub. Fizik 1962-ci ildə Nobel mükafatına layiq görülüb.

Məktəbin adlı-sanlı şagirdləri və məzunları arasında həmçinin görkəmli kinorejissor Eldar Quliyev, Moskvada yaşayan jurnalist və tərcüməçi Mixail Qusmanın da adı var. Hazırkı iqtisadiyyat naziri Mikayıl Cabbarov, gənclər və idman naziri Fərid Qayıbov, xarici işlər nazirinin müavini Samir Şərifov, “Bakı Metropoliteni”nin sədri Zaur Hüseynov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balaş Qasımov da bu məktəbdə təhsil alıblar. Məktəbdə oxuyan şagirdlərin və məzunların siyahısında tanınmış həkimlər, mühəndislər, hərbçilər və sair peşə təmsilçilərinin adları var. Hazırkı direktoru Elida Rzayeva da vaxtilə bu məktəbin məzunu olub.




Fotolar: Sabir Məmmədov - Global Photostock



### BÖYÜYƏN NƏSİL ÜÇÜN ÖRNƏK

Məktəbin kitabxana müdiri Zemfira Useynova deyir ki, təhsil ocağı vaxtilə el arasında “yəhudi məktəbi” kimi də tanınıb: “Məktəb şəhərin mərkəzində yerləşib. Bu ərazilərdə də yəhudilər çox yaşayıb. Onlar uşaqlarını bu məktəbə gətirirdilər. Sonradan köçüb getsələr də, indi də Bakıya gələndə mütləq məktəbə baş çəkir, sinif otaqlarını gəzirlər”.

Məktəbin təqaüddə olan biologiya müəllimi Valiyə İsmayılova bu təhsil ocağında 50 il çalışıb. Yuxarıda adları qeyd olunan tanınmış şagird və məzunların hamısına dərs deyib: “Mən məktəbə çalışmağa gələndə direktor Aron Davidoviç Vizir idi. Göndərişlə gəldiyim üçün heç bir sorğu-sual etmədən məni işə qəbul etdi. 17 yaşım vardı. Əvvəlcə dəstə rəhbəri, sonra müəllim, daha sonra dərs hissə müdiri kimi çalışdım. Bu məktəbdə azərbaycanlılar, yəhudilər, ruslar və ermənilər oxuyurdu. Şəhərin mərkəzində olduğu üçün demək olar ki, bütün dövlət xadimlərinin, məşhur insanların övladları bu məktəbdə təhsil alırdı. O cümlədən, Azərbaycanın tanınmış soylarından - Ləmbəranskilərin, Talışınskilərin, Vəzirovların övladları oxuyurdu. Uşaqlar arasında çox mehriban münasibətlər vardı”.

### KEÇMİŞLƏ BU GÜN ARASINDA KÖRPÜ

2012-ci ildə məktəbdə təmir işləri aparılıb və siniflərin yeri dəyişib. Təkcə geniş və hündür akt zalı olduğu kimi saxlanıb. Tarixi bina olduğundan fasadına toxunulmayıb.

128 yaşlı məktəbin dəhlizlərini və sinif otaqlarını gəzdikcə təəssüf doğuran bir halla da rastlaşırıq: məktəbin tarixi və məşhur məzunları ilə bağlı hər hansı bir guşə yoxdur. Hazırkı təhsilalanlara məktəbin keçmiş şagirdləri və məzunları haqqında məlumat verən hər hansı materiallar gözə dəymir. Məsələn, Nobel mükafatçısı Landaunun ilk uşaqlıq illərini yaşadığı evin divarında xatirə barelyefi vurulsa da, Bakı şəhərindəki küçələrdən birinə alimin adı verilsə də, Prezident İlham Əliyevin 2008-ci il yanvarın 22-də dahi fizikin 100 illik yubileyinin vətəni Bakı şəhərində keçirilməsi haqqında Sərəncamı olsa da, təhsil aldığı gimnaziyada alimin həyat və fəaliyyətini işıqlandıran bir guşəyə rast gəlmədik. Nəzərə almaq lazımdır ki, Azərbaycan torpağında dünyaya gəlmiş bu görkəmli alimin həyatı, yaradıcılığı və elmi fəaliyyəti hazırda məktəbdə təhsil alan şagirdlər, ümumiyyətlə, böyüyən nəsil üçün bir örnək-dir.



Valiyə İsmayılova

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
21 DEKABR ŞƏNBƏ 2024




MİTOMA

# SÜNİ İNTELLEKT TƏBİİ MEYDANLARDA

Süni intellektin meydanlara inteqrasiyası hələ başlanğıc mərhələsindədir. Lakin bu texnologiya getdikcə daha çox klub və məşqçi tərəfindən qəbul edilir. Gələcəkdə onun futbolu necə dəyişəcəyini görmək çox maraqlı olacaq.

Nostalji futbol azarkeşlərinin top oyununun müasir formasını bəyənməmək üçün əsasları var. Artıq meydanlarda Ronaldinyo kimi saf istedadlara yer yoxdur. Bunun əvəzinə taktikaya bağlı, hər hərəkəti ölçülü-biçili futbolçular dəbdədir. Süni intellekt artıq yalnız statistik analizlərlə kifayətlənmir, həm də məşqçilərin qərarlarını yönəldir, oyunları proqnozlaşdırır və transfer siyasətini kökündən dəyişdirir. Bu texnologiyanın gələcəkdə futbolun necə oynanacağına təsir edəcəyini izləmək olduqca maraqlıdır.



### MİTOMA NECƏ TOP SƏVİYYƏYƏ YÜKSƏLDİ?

Texnologiyanın inkişafı ilə futbol elmiləşib və məşqçilər oyunçuların potensialından maksimum necə yararlana biləcəklərini data analitika ilə müəyyənləşdirirlər. Hətta oyunçular özləri də daha yaxşı oynamaq üçün texniki vasitələrə əl atırlar.

Son iki mövsüm İngiltərənin "Brayton" klubunun parlaq üzvü olan Kaoru Mitoma driblinq bacarıqlarını elmi araşdırma ilə inkişaf etdirib. 19 yaşı olarkən özünü böyük futbola hazır hesab etməyərək təklifləri geri çevirən yaponiyalı universitetə daxil olur. Orada isə o, oyunçuların driblinq bacarıqları üzərində elmi iş hazırlayır. Mitoma bu məqsədlə özünün və komanda yoldaşlarının başına kamera bağlayır.

Matçlardan sonra analizlər edən futbolçu müəyyənləşdirir ki, yaxşı keçid qabiliyyətinə malik oyunçular topa yox, rəqibin gözlərinə baxırlar və onun dayaq mərkəzini tərpətmək üçün çox hərəkətli davranırlar. Araşdırmanın nəticəsində Mitoma driblinq bacarıqlarını xeyli inkişaf etdirir. O, hazırda "Brayton"un əsas fiqurlarındandır və böyük klubların diqqət mərkəzinə düşməyi bacarıb.

### "MANÇESTER SİTİ"DƏ SÜNİ İNTELLEKTİN GÜCÜ

"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola da futbolda süni intellektə verdiyi rola görə ön sıralardadır. O, "Metrica Sports" və "StatsBomb" kimi süni intellekt əsaslı platformalardan rəqib komandaların zəif nöqtələrini tapmaqda istifadə edir. Həmin məlumatların emalı komandasının taktikasını hər bir oyuna uyğun şəkildə müəyyənləşdirməyə kömək edir. Məsələn, "şəhərlilər"in bu ilin əvvəlində oynadığı matçların birində rəqibin müdafiə xəttindəki boşluqlar süni intellekt vasitəsilə müəyyən edilib və bu məlumat komandanın hücumlarının daha effektiv olmasına imkan yaradıb.

Bundan əlavə, "Mançester Siti"nin məşqçilər heyəti oyunçuların fiziki vəziyyətini izləyən və zədə riskini proqnozlaşdıran texnologiyalardan istifadə edir. Bu, Qvardiola üçün oyunçuları ən yüksək fiziki səviyyədə saxlamaq və onlardan maksimum fayda əldə etmək baxımından əhəmiyyətli bir alətə çevrilib.

## SLOTUN TAKTİKİ İNQİLABINDA TEXNOLOGİYA ELEMENTLƏRİ

"Liverpul"da da süni intellektdən istifadə olunur. Komandanın baş məşqçisi Arne Slot Yurqen Kloppdan sonrakı dövrdə pressinq sistemini daha da effektivləşdirmək üçün bundan yararlanıb. "SkillCorner" adlı platforma rəqib komandaların oyun stilini analiz edərək, hər bir oyunçunun hansı taktika ilə daha təsirli ola biləcəyini göstərir. Bu məlumatlar əsasında Slot futbolçuların effektivliyini artırmağa nail olub.

"Liverpul"da da süni intellekt yalnız taktika ilə məhdudlaşmır. Oyunçuların məşq proqramlarını fərdiləşdirmək, onların fiziki və zehni vəziyyətlərini izləmək və mümkün zədələrin qarşısını almaq üçün də ondan istifadə olunur.

### TRANSFERLƏRİ KOMPÜTER SEÇİR

Futbol klubları artıq transfer bazarında da süni intellektin köməyinə müraciət edirlər. Yüksək büdcəli klublar bunun vasitəsilə oyunçuların performansını dərindən analiz edir, onların komanda üçün uyğunluğunu və potensialını daha yaxşı dəyərləndirirlər.

"Brayton" az tanınmış, amma potensiallı olan oyunçuları tapmaqda süni intellektdən istifadə edən ən uğurlu klublardan biridir. Komanda "AI Scout" platforması ilə futbolçuları izləyir və onların statistikalarını təhlil edir. Bu yanaşmanın nəticəsi olaraq "Brayton" çox vaxt gözlənilməz oyunçuları aşağı büdcə ilə kluba gətirə bilir. Əvvəl də haqqında bəhs etdiyimiz Kaoru Mitoma və Moyzes Kaysedo kimi futbolçular bu texnologiyanın köməyi ilə tapılıb.

"Barselona" isə yeni texnologiyalardan istifadə edərək, gənc futbolçuların inkişafını izləmək və onların potensialını daha tez aşkar etmək üçün yeni layihələr həyata keçirir. Akademiyada futbolçuların hərəkətləri və qərar qəbuletmə qabiliyyətləri süni intellekt vasitəsilə analiz edilir və onlara fərdi məşq proqramları təqdim olunur.

"Milan" süni intellektlə daha çox oyunçuların taktiki uyğunluğuna diqqət edir. Klub texnologiyanın köməyi ilə futbolçuların ümumi oyun anlayışını, xüsusilə hücum və müdafiə məsələlərindəki uyğunluqlarını təhlil edir.

## SÜNİ İNTELLEKT ZƏDƏLƏRƏ QARŞI DA EFFEKTLİDİR

Böyük klublar artıq süni intellekt vasitəsilə oyunçularının fiziki vəziyyətini də izləyir və zədələrini proqnozlaşdırmağa çalışırlar. "Bavariya" bu yanaşmada öncüllərdən biridir. Klub bununla oyunçuların məşq yükünü izləyir və zədə riski yaranarsa, məşq proqramını dərhal tənzimləyir. Leon Goretska və Yosua Kimmix kimi oyunçuların zədələnmə riski bu sistem sayəsində azaldılıb.

Bundan əlavə, komandanın məşqçiləri süni intellekt məlumatları ilə məşqləri daha da optimallaşdırır və hər oyunçunun bədənindəki təzyiqi izləyərək, onların istirahət zamanlarını düzgün planlaşdırırlar.

### GƏLƏCƏYİN OYUNU

Süni intellektin meydanlara inteqrasiyası hələ başlanğıc mərhələsindədir. Lakin bu texnologiya getdikcə daha çox klub və məşqçi tərəfindən qəbul edilir. Gələcəkdə onun futbolu necə dəyişəcəyini görmək çox maraqlı olacaq. Bu yeni dövr, həm məşqçilərə, həm də azarkeşlərə futbolu fərqli bir baxışla izləmək imkanı yaradır. Süni intellektin insan instinktlərinə qalib gələ bilib-bilməyəcəyini isə zaman göstərəcək.